


# Rüstəm İbrahimbəyov siyasətdən biznesə keçir

## Sahib Kərimli: "Rüstəm İbrahimbəyovla biznes məsələləri ilə bağlı müzakirə apardıq"

**2013-cü ilin prezident seçkiləri ərəfəsində Azərbaycan siyasətinin ulduzuna çevrilən kinorejissor Rüstəm İbrahimbəyov uzun müddətdir siyasət aləmində görünmür. Sonuncu dəfə kinorejissor Azərbaycanda qardaşı, xalq yazıçı Maqsud İbrahimbəyovun yas mərasimində olub.**

Üzdə görünməsə də, R.İbrahimbəyov Milli Şuranın fəxri sədri kimi hələ də siyasət aləmində adından söz etdirir. Lakin passiv fəaliyyəti ilə onun adı getdikcə siyasətdən silinməkdədir. Bir müddət prezidentliyə Milli Şuranın vahid namizədi olan, məhz onun projesi ilə yaradılan qurumun fəxri sədri kimi o, Azərbaycanda daim müzakirə mövzusudur. Kinorejissorun harada, hansı işlərlə məşğul olması oxucularımızın hər zaman diqqətindədir. Azərbaycanda barəsində 2013-cü ilin əvvəllərində cinayət işi açılan İbrahimbəyovun tez-tez Moskvada yaşadığı barədə mətbuat və ictimaiyyət daxilində xəbərlər yayılıb. Bəzi zamanlarda bu məlumatlar öz təsdiqini də tapıb. Bununla belə Milli Şuranın fəxri sədrinin ABŞ-da da tez-tez görünməsi ilə bağlı yayılan məlumatlar da az deyil.

Bu ilin iyununda Moskvada Rüstəm İbrahimbəyovla görüşən **Milli Şuranın sabiq üzvü, AXCP funksioneri Sahib Kərimli**dən kinorejissorun son durumu barədə fikirlər aldıq. S.Kərimli günlər öncə Milli Şuranın fəxri sədri ilə görüşdüyünü bildirdi: "Nəinki 7 ay öncə, təqribən 10-15 gün qabaq Rüstəm İbrahimbəyovla Türkiyədən dönərkən Moskvada görüşdüm. Keçən dəfə görüşümüzdə Rüstəm müəllim mənə demişdi ki, yolun Moskvaya düşəndə gəl-get. Milli Şuradan çıxarılmağımı onunla müzakirə etdim. O mənə qısaca olaraq dedi ki, siz öz hərəkatınızı yaratmalısınız. Məsələyə münasibəti belə oldu. Rüstəm İbrahimbəyov artıq siyasətlə maraqlanmır. Özü mənə dedi ki, artıq yaşlanmışam və buna görə siyasətlə maraqlanmıram, yaradıcılığımla məşğulam. Rüstəm İbrahimbəyovla daha çox biznes məsələləri ilə bağlı müzakirə apardıq. Ölkədəki bazarlarda meyvə-tərəvəz sahəsində Türkiyədən malların vurulması və burada biznes qurmağın mümkünlüyü barədə ümumi söhbət etdik. Ölkəmizdə kənd təsərrüfatının inkişafı yollarından da danışdıq. Xeyli bilgilər aldım".

❑ Cavanşir ABBASLI

# Azərbaycanda vergi amnistiyası elan oluna bilər

**Azərbaycanda vergi amnistiyası elan oluna bilər. APA-nın əldə etdiyi məlumata görə, ölkə başçısı İlham Əliyevin təşəbbüsü ilə bununla bağlı müvafiq qanun layihəsi Milli Məclisə daxil olub.**

Layihə sabah Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində müzakirə olunacaq.

Sənədə əsasən, vergi amnistiyası 2017-ci ilin yanvarın 1-dək vergi borcu olan hüquqi və fiziki şəxslərə şamil olunacaq. Belə ki, qeyd edilən dövrədək vergi borcu olan şəxslər 2017-ci ilin yanvar ayında borcunun 30%-ini, fevral ayında 50%-ini, mart ayında isə 70%-ini ödəyərsə borcun qalıq hissəsi amnistiya olunacaq.

**Layihə beynəlxalq təcrübəyə əsaslanaraq hazırlanıb.**

"Qaya Mətbuat Yayımı" MMC!

**- İstənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:**

- Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə çatdırılmasını;
- Mətbuatı aldıqdan sonra abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;
- Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;

**Ən başlıcası ayda 26 dəfə nəşr olunan**
**"Yeni Müsavat" - 0.60 AZN**
**və bundan əlavə 2500 adda yerli**
**və xarici nəşrlər.**

- Abunə yazılmaq üçün uzağa getmək lazım deyil.

**Telefonla zəng etməyiniz kifayətdir:**
**Bakı şəh. 564-63-45; 598-35-22**

# Rusiyanın Türkiyədəki səfiri güllələnib öldürüldü


Səfir Andrey Karlov


Terroru törədən gənc

**Musavat.com-un Türkiyə mətbuatına istinadən verdiyi məlumata əsasən Rusiyanın Türkiyədəki səfiri Andrey Karlov Ankaranın Çankaya bölgəsində qatıldığı rəsm sərgisində silahlı hücuma məruz qalıb.**

Hadisə şahidlərinin verdikləri məlumata görə, səfir



danışmaq üçün səhnəyə dəvət alıb, o, danışmağa başlayan andaca kostyumlu bir nəfər silahı qaldıraraq "Hələbin hesabı sorulacaq", deyə bağırıb və dalbadal atəş açıb. Həmin şəxsin sərgi salonuna polis əməkdaşı vəsiqəsi ilə daxil olduğu deyilir.

Səfir Andrey Karlov sui-qəd zamanı yaralanıb və dərhal xəstəxanaya qaldırılıb.

Rusiyanın Türkiyədəki səfiri aldığı yaralardan xəstəxanada keçinib.

Sui-qəsd zamanı digər yaralıların da olduğu bildirilir. Son dəqiqə bilgisinə görə, həmin sui-qəsdçi 40 dəqiqə sonra zərərsizləşdirilərkən öldürülüb.

Qeyd edək ki, bu, son bir həftədə Türkiyədə üçüncü terror hadisəsidir və bu terrorlarda açıq-aydın xarici dövlətlərin izi, həmçinin istiləşməkdə olan Rusiya-Türkiyə münasibətlərini pozmaq məqsədi güdüldüyü müşahidə edilir.

Rusiya Xarici İşlər Nazirliyinin sözçüsü Mariya Zaxarova Andrey Karlovun aldığı güllə yaralarından keçindiyini təsdiq edib.

**Mariya Zaxarova hadisəni terror aktı olaraq qiymətləndirdiklərini söyləyib:** "Rusiya Federasiyası səfrinin Türkiyədə öldürülməsi məsələsi BMT Təhlükəsizlik Şurası üzvləri qarşısında da qaldırılacaqdır".

# "Sınaq imtahanları keçirmək üçün maddi imkanımız yoxdur"

**IX siniflər üzrə sınaq imtahanları yazılı təşkil olunmayacaq, imtahan yalnız onlayn formada keçiriləcək.**

APA-nın xəbərinə görə, bunu Dövlət İmtahan Mərkəzinin Direktorlar Şurasının sədri Məleykə Abbaszadə deyib. O bildirib ki, IX siniflər üzrə yazılı sınaq imtahanının keçirilməsinə nə şagirdlər, nə də qurum özü hazırdır: "Hazırda sınaq imtahanlarını keçirmək üçün maddi imkanımız yoxdur. Şagirdlər isə öyrəşiblər ki, sınaq imtahanı verəndən sonra təcili cavablarını alsınlar. Amma onlayn formada keçirilən sınaq imtahanlarının nəticələri iki həftə ərzində yoxlanılaraq təqdim olunacaq".

**M.Abbaszadə qeyd edib ki, IX siniflər üzrə buraxılış imtahanının I mərhələsinin nəticələri də 1 ay ərzində yoxlanılacaq və həmin şagirdin şəxsi səhifəsinə yerləşdiriləcək. Hətta ekspertlərin rəylərinin də orada olacağını deyən Şura sədri vurğulayıb ki, yeni qaydalara əsasən imtahan nəticələri attestatlarda yalnız balla yazılacaq**: "Mənfi, ya müsbət, yaxşı və pis nəticə toplaması orada yazılmayacaq. İmtahanda hansı qiymət almasından asılı olmayaraq, şagird attestat alacaq. İmtahanın nəticələrinə əsasən şagirdlər orta ixtisas təhsili müəssisələrinə sənəd verə biləcəklər".

M.Abbaszadənin sözlərinə görə, bu il IX siniflər üzrə buraxılış imtahanları yeni qaydalarla keçirildiyi üçün I mərhələnin nəticələrinə əsasən hər hansı bal məhdudiyyəti qoyulmayacaq. I mərhələdən 0 bal toplayan şagird sonradan müsabiqənin II mərhələsində, həmçinin orta ixtisas təhsili müəssisələrinə keçirilən müsabiqədə iştirak edə biləcək.

**DİM Direktorlar Şurasının sədri deyib ki, iyunun 14-də orta məktəblərdə dərslər bitəndən sonra buraxılış imtahanının II mərhələsi keçiriləcək:** "İmtahandan iki gün sonra nəticələr açıqlanacaq. O zaman müəyyən olunacaq ki, hansı balla şagirdlərin kolleclərə sənəd verməsinə icazə veriləcək. Ola bilsin ki, yaxın bir ay ərzində kolleclərə yeni qəbul qaydaları ilə bağlı açıqlama verilsin. Bu qaydalar hələ müzakirə olunur".

# İtkin düşən neftçilərdən xəbər yoxdur, ekspertlər bədbindir

**Dekabrın 15-də Nərimanov adına NQÇİ-nin estakadasının uçması nəticəsində dənizdə itkin düşən 9 neftçinin axtarışı nəticə verməyib. Neftçilərdən birinin cəsədi isə hadisədən bir sutka sonra tapılıb.**

16 dekabr 2016-cı il sərəncamına əsasən Dövlət Dəniz Administrasiyasının (ARDDA) Gəmilərin Hərəkətinin İdarəolunması Milli Mərkəzində Fövqəladə Hallar Nazirliyi (FHN), Müdafiə Nazirliyi, Dövlət Sərhəd Xidməti, ARDDA, SOCAR və Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi QSC-nin aparıcı mütəxəssislərindən ibarət tərkibdə yaradılan Qərargah tərəfindən təsdiq edilən plana uyğun olaraq, müəyyən edilən sektorlar üzrə axtarış-xilasetmə əməliyyatları davam etdirilir.

Adı çəkilən dövlət qurumlarına məxsus ümumilikdə 44 gəmi və üzən vasitə, 6 helikopter, habelə 700-dən artıq canlı qüvvə axtarış işlərinə cəlb edilib, intensiv davam etdirilən axtarış - xilasetmə əməliyyatları, uzunluğu 100 km və eni isə 72 km olan geniş ərazini əhatə edir.

Qeyd edək ki, hadisə ilə bağlı dekabrın 16-da Baş Prokurorluq CM-in 162.2-ci maddəsi ilə (ehtiyatsızlıq səbəbindən əmək təhlükəsizliyi qaydalarının pozulması nəticəsində insan ölümü) cinayət işi qaldırıb.

**"Yeni Müsavat"a açıqlamasında itkin düşən neftçilərin bu günə qədər tapılmamasına münasibət bildirən Neft Araşdırmalar Mərkəzinin rəhbəri İlham Şaban maraqlı faktlar açıqladı:** "Faktiki olaraq 2015-ci ilin dekabr ayında "Günəşli"də baş verən faciədən sonra da orada itkin düşən neftçilərdən əksəriyyətinin cəsədi tapılmadı. Bu dəfə də eyni hava şəraiti, qasırğa, soyuq və birdən-birə bədən temperaturunun düşməsi, qıcolma, dənizin dibinə düşmə və axının aparmasıE Xatırlayırsınızsa, həmin neftçilərin cəsədini hadisə yerindən 70 kilometr uzaqda tapırdılar. Burada da eyni prosesdir. Sadəcə burada suyun dərinliyi azdır. Ancaq axın güclü olduğundan dalğanın neftçilərin cəsədini böyük bir məsafəyə aparması düşünülə bilər. Bu ərazi sahil zonasından çox da uzaqda olmasa da, qasırğa çox güclü olub. Digər tərəfdən çox güman ki, cəsədlər suyun dibinə enib. Bu necə bir prosesdirsə, əvvəlki qəzada da yaşanmışdı. "Günəşli" qəzasında həlak olan 30 nəfərdən heç 20-nin meyiti tapılmadı".

**Ekspertin sözlərinə baş verən bu iki hadisə göstərir ki, belə bir şəraitdə öldükdən sonra insan meyiti suyun üzünə çıxmaya da bilər**: "Çox maraqlıdır, bu qısa müddətdə insan orqanizmində elə bir proses gedir ki, o sonradan meyitin suyun üzünə qalxmasına imkan vermir. Praktika göstərir ki, meyit suyun üzünə qalxmaya da bilər. Çoxları elə bilir ki, Xəzər dənizi filmlərdə gördükləri dəniz kimidir, baxanda dibi görünəcək. Lakin Xəzər dünyanın ən qaranlıq dənizlərindən biridir. Burada 3 metrdən aşağıda heç nəyi görmək mümkün deyil, çünki oraya günəşin şüası keçmir. Ona görə Xəzərin dibində flora inkişaf etməyib. Çünki gün işığı dənizin dibinə düşmür".

❑ Nərgiz LİFTİYEVA



# Ali Attestasiya Komissiyasının sədri vəfat etdi

**Prezident yanında Ali Attestasiya Komissiyasının sədri, fizika-riyaziyyat elmləri doktoru, akademik Arif Mehdiyev vəfat edib.**

Mərhumun ailəsindən APA-ya verilən məlumata görə, A. Mehdiyev uzun sürən xəstəlikdən sonra bu gün günorta saatlarında dünyasını dəyişib.

Akademikin xəstəliyi açıqlanmayıb.

Qeyd edək ki, A. Mehdiyev 19 dekabr 1934-cü ildə Bakı şəhərində anadan olub.

Moskvada Rabitə Elektrotexnika İnstitutunu bitirib. O 1992-ci ildən Beynəlxalq mühəndis akademiyasının həqiqi üzvü, 1996-cı ildən isə Amerika astronavtika və aeronavtika institutunun üzvüdür.

Azərbaycan prezidenti İlham Əliyev, dövlət və hökumət nümayəndələri tanınmış alim Arif Mehdiyevin vəfatı ilə əlaqədar başsağlığı veriblər.

Allah rəhmət eləsin!

# Bakıda xəstəxanada həkimin oğlu özünü bıçaqladı

**Bakıda xəstəxanada 19 yaşlı oğlan özünü bıçaqlayıb. "Report"un xəbərinə görə, hadisə 2 saylı Psixiatrik Kliniki Xəstəxanasında qeydə alınıb.**

Belə ki, 1997-ci il təvəllüdlü F.M. Nərimanov rayonu Ziya Bünyadov prospekti 48 ünvanından 2 saylı Psixiatrik Kliniki Xəstəxanaya gətirilib. 19 yaşlı gənc xəstəxanada özünü öldürmək məqsədi ilə bədən nahiyəsinə iki bıçaq zərbəsi vurub. Nəticədə o, ağır xəsarət alıb və 1 saylı Şəhər Klinik Xəstəxanasına yerləşdirilib.

F.M.-nın yaxınlarının dediyinə görə, o, anası ilə dəfələrlə mübahisə edib. Nəticədə anası onu 2 saylı Psixiatrik Kliniki Xəstəxanaya göndərib.

Onun anası Təcili Təxirəsalınmaz Yardım Xidmətində həkim kimi fəaliyyət göstərir.

Faktla bağlı araşdırma aparılır.

YENİ MÜSAVAT
N 282 (6603) 19 dekabr 2016

# Neftçi faciəsində təxribat iddiasına reaksiyalar gəldi

**Dekabrın 15-də gecə saatlarında "Azneft" İstehsalat Birliyinin strukturuna daxil olan N.Nərimanov adına Neft və Qazçıxarma İdarəsinin 1-ci mədənində baş verən faciədən 4 gün ötür. 10 neftçinin həyatına son qoyan hadisədə cəsədi tapılmayan 9 neftçinin axtarışları hələ də davam edir.**

Fövqəladə Hallar Nazirliyi dekabrın 17-də hadisə ilə bağlı növbəti açıqlamasını yayıb. Nazirliyin mətbuat xidmətindən APA-ya verilən məlumata görə, "Azneft" İB-nin N. Nərimanov adına Neft Qaz Çıxarma İdarəsinin 3 saylı Neft Yığım Məntəqəsində yerləşən estakadanın dənizə uçması nəticəsində itkin düsmüş neftçilərin axtarışı davam etdirilir.

Aparılan axtarış işlərində FHN-nin Aviasiya dəstəsinin iki helikopteri, "Vixr-5", "Vixr-8" və "Svetlomor-2" gəmiləri iştirak edir. Bununla yanaşı, FHN-in Kiçikhəcmli Gəmilərə Nəzarət və Sularda Xilasetmə Dövlət Xidmətinin, Xüsusi Riskli Xilasetmə Xidmətinin və Mülki müdafiə qoşunlarının şəxsi heyəti sahilboyu ərazilərdə axtarış işlərinə cəlb olunub.

İtkin düşənlərin axtarışının daha da sürətləndirilməsi və axtraış ərazisinin genişləndirilməsi, eləcə də bu işlərə cəlb olunmuş dövlət qurumları arasında koordinasiyanın daha da gücləndirilməsi məqsədilə Fövqəladə Hallar Nazirliyində Müdafiə Nazirliyi, Fövqəladə Hallar Nazirliyi Dövlət Sərhəd Xidməti Dövlət Dəniz Administrasiyası SOCAR və Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi QSC-nin rəhbər şəxslərinin iştirakı ilə toplantı keçirilib. Toplantıda yuxarıda qeyd olunmuş məqsədlərin həyata keçirilməsi üçün Dövlət Dəniz Admnistrasiyasının Gəmilərin Hərəkətinin İdarəolunması Milli Mərkəzində Qərargah yaradılması qərara alınıb.

Yaradılmış Qərargah tərəfindən hadisənin baş verdiyi rayonda hava şəraiti, küləyin, sualtı və suüstü axıntılarının istiqaməti və sürəti təhlil olunaraq, Qərargahda təmsil olunan qurumların sahilboyu, dənizdən və havadan səfərbər olunan qüvvələrlə müəyyən edilmiş koordinatlarda əməliyyatların davam etdirilməsi təmin olunub. Eyni zamanda adıçəkilən Qərargah tərəfindən xarici bayraq altında üzən gəmilər də daxil olmaqla ərazidə olan bütün gəmilərlə və Xəzəryanı dövlətlərin eyniadlı Milli Mərkəzləri ilə mütəmadi olaraq məlumat mübadiləsi aparılmaqdadır.





**Arzu Nağıyev:** "Bütün versiyalar nəzərə alınmalıdır"



**Mirvari Qəhrəmanlı:** "Təxribat ehtimalı sıfıra bərabərdir"

Axtarış-xilasetmə Qərargahı dekabrın 18-də APA-ya növbəti məlumatını verib: "Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin "Azneft" İstehsalat Birliyinin Neft yığım məntəqəsində baş vermiş hadisə ilə əlaqədar bəzi tədbirlər haqqında" Azərbaycan Respublikasının Prezidentinin 16 dekabr 2016-cı il Sərəncamına əsasən yaradılmış Qərargah tərəfindən Fövqəladə Hallar Nazirliyi, Müdafiə Nazirliyi, Dövlət Sərhəd Xidməti, Dövlət Dəniz Administrasiyası, SOCAR və Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi QSC-nin mütəxəssislərinin iştirakı ilə axtarış-xilasetmə əməliyyatlarının planı təsdiq olunaraq, axtarış-xilasetmə sektorları müəyyən edilib.

Hazırda qeyd olunan Plan üzrə Müdafiə Nazirliyi, Fövqəladə Hallar Nazirliyi, Dövlət Sərhəd Xidməti, SOCAR və Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi QSC-yə məxsus ümumilikdə 44 gəmi və üzən vasitə, 6 helikopter, habelə 700-dən artıq canlı qüvvə cəlb edilməklə intensiv axtarış-xilasetmə işləri davam etdirilməkdədir. Eyni zamanda sahilboyu ərazilərdə Fövqəladə Hallar Nazirliyi, Dövlət Sərhəd Xidmətinin canlı qüvvələri tərəfindən axtarış tədbirləri həyata keçirilməkdədir. Əlavə olaraq, Qərargah tərəfindən axtarış-xilasetmə sektorlarının əhatə etdiyi ərazilər üzrə rayon icra hakimiyyətləri də müvafiq qaydada təlimatlandırılıb.

Son bir ildə baş verən ikinci belə hadisə ilə bağlı müxtəlif iddialar meydana çıxıb. Faciədə təxribat izləri axtarılır.

Bütöv Azərbaycan Xalq Cəbhəsi Partiyasının sədri, deputat Qüdrət Həsənquliyev də hadisədə təxribatın ola biləcəyini öz çıxışında vurğulayıb: "Bəzi qonşu dövlətlərin münasibətini nəzərə alsaq, burada təxribatlar da ola bilər. Mümkündür ki, Azərbaycanın yürütdüyü müstəqil siyasətdən narazı qalan qüvvələr tərəfindən estakadalar zədələnir. Təbii ki, kimlərsə, burada məsuliyyətsizliyə yol veribsə, onlar tapılıb cəzalandırılmaldır. Amma xarici qüvvələrin təxribatının olub-olmaması versiyası da araşdırılmalıdır".

**Təhlükəsizlik üzrə ekspert Arzu Nağıyev** "Yeni Müsavat"a açıqlamasında deputatın iddiaları ilə bağlı bunları dedi: "Hər hansı bir istintaq, cinayət işi başlayanda, obyekt, subyekt, obyektiv və subyektiv tərəflər nəzərə alınmalıdır. Əsas məsələ burada ondan ibarət olmalıdır ki, təxribat törətməklə kimə qarşı bunu edə bilərlər? Belə məlumatların daxil olması ilə bir neçə versiya irəli sürülür. Təxribat, yaxud qəsdən törədilmə kimi versiyalar irəli sürülə bilər, bir də təhlükəsizlik qaydalarına əməl olunmama. Burada təxribatdan söhbət gedir kimi məsələni ortaya qoymaq düzgün olmazdı. Təbii ki, avadanlıqlar, ehtiyat üçün geyinilən jiletlər yoxlanılmalıdır. Bundan sonra siqnal xarakterli məlumatların əsasında daxil olan məlumatlara əsasən istintaq aparılmalıdır. Bu gün qəti şəkildə hadisənin təxribat olması ilə bağlı fikirlər səsləndirmək düzgün deyil. Allah bütün ölənlərə rəhmət eləsin. Həyatlarını itirənlər iş başında rəhmətə getdilər. Bütün versiyalar nəzərə alınmalı və bunun əsasında aparılan araşdırmalardan sonra ümumi nəticəyə gəlmək olar. Təxribat törədənlər bunu məqsədli şəkildə edirlər".

**Neftçilərin Hüquqlarını Müdafiə Komitəsinin sədri Mirvari Qəhrəmanlı** təxribatın olması ilə bağlı iddialarla razı deyil: "Bu, növbəti müdafiə üsuludur. Çox vaxt qəzaları küləyin üzərinə atırlar. Külək olmayanda da təsadüfin üstünə qoyurlar. Bu da müxtəlif müdafiə üsullarından biridir. Necə ki, vəkillər kimisə müdafiə edəndə bütün mümkün olan üsullara əl atdıqları kimi. Təxribat ehtimalı sıfıra bərabərdir. Əgər təxribatdırsa, o zaman bunu daha çox qurumlar bir-birilərinə qarşı edirlər. Vəzifə səlahiyyətləri olan şəxslər arasında da belə təxribat halları bəzən olur. Eskadraların istifadə müddəti 30 ildir. Bunlar isə 1970-ci illərdə tikilib. Ya təmir olunmalı, ya da yenidən tikilməli idi. Təsəvvür edin ki, istifadə müddəti bitmiş eskadralarda insanları butkalarda yerləşdiriblər. Bu, təxribat deyil, külək də səbəb deyil. Sadəcə eskadralar uçmalı idi, buna külək kömək edib ki, daha tez uçsun. Bu hadisənin məsuliyyətsizlikdən baş verdiyini də deyə bilməzdim. Sadəcə, ayrılan vəsaitdən düzgün istifadə olunmayıb".

❑ **Cavanşir ABBASLI**



# Suriya münaqişəsinin qalibi kimdir - Rusiya, yoxsa...

## Beynəlxalq güclərin savaş meydanına çevrilən ölkəyə sülh tezliklə gəlməyəcək

**Suriyanın Hələb şəhərinin hökumət qüvvələrinin əlində keçməsi həm də Rusiyanın Qərb üzərində qələbəsi kimi təqdim olunur. Bu iddianı ortaya atanlar Qərb mediasıdır. Nüfuzlu Britaniya qəzetləri Qərbin Əsədlə barışmalı olduğunu yazırlar.**

BBC-yə müsahibəsində Britaniya ordusunun keçmiş baş qərargah rəisi, general Devid Riçarda görə, Qərb Suriya müharibəsində məğlub olduğunu etiraf etməlidir. Sitat: "Suriya savaşında məğlub olduğumuz görünür, amma bu, Suriyada sülhü də itirdiyimiz anlamına gəlmir. Bizim açıq strategiya formalaşdırmağımız lazımdır".

Qeyd edək ki, bu iddiada müəyyən həqiqət payı az deyil. Çünki Suriyada savaşın taleyi məhz 2015-ci ilin payızından - Rusiyanın hərbi əməliyyatlara qatılmasından sonra əsaslı şəkildə dəyişib. Xüsusən də Hələbin alınması birbaşa Rusiya ordusunun dəstəyi, rus planı üzrə gerçəkləşib. O da məlumdur ki, Hələb və Suriyanın digər bölgələrində Qərbin dəstəklədiyi qüvvələr hökumətə qarşı savaşır. ABŞ-ın, Qərbin maliyyə, silah dəstəyi verdiyi silahlı dəstələr Suriyanın yarıdan çox hissəsinə faktiki olaraq nəzarət edir. Şimalda kürd YPG birlikləri, şimal-qərb bölgələrində ASO və digər silahlılar ərəb ölkələrindən, Qərbdən açıq dəstək alır.

Ötən gün Türkiyə mediasında Hələbin mühasirədə olan hissəsində NATO-nun əməliyyat qrupuna daxil olan 14 zabitin ələ keçməsi haqda xəbərlər yayılıb. Aralarında bir türk adı da olan siyahıda ABŞ, İsrail, Qətər, Səudiyyə Ərəbistanı, İordaniya və Mərakeş hərbçilərinin olduğu iddia edilir.

Bu məsələnin BMT-nin qapalı toplantısında müzakirə çıxarıldığı iddia olunsa da, hələlik heç bir tərəfdən rəsmi açıqlama yoxdur. Ancaq bu xəbərlərin məhz Hələbin boşaldılması, Rusiya-Qərb qarşıdurması fonunda yayılması diqqət çəkir. O da deyilir ki, Hələbin qalan hissəsi məhz bu zabitlərin geri verilməsi nəticəsində boşaldılacaq.

İstənilən halda Suriya münaqişəsi artıq bir qlobal toqquşmaya çevrilir. Çünki hər iki tərəfdə böyük dövlətlər və güclər var. Əgər münaqişənin ilk başlarında yalnız İran Bəşər Əsədə dəstək verirdisə, indi Rusiya, Çin, hətta Misir kimi ərəb ölkələri də Suriyada legitim hakimiyyət olaraq Bəşər Əsəd hökumətini müdafiə edir. Başlanğıcda isə Qərb dövlətləri, ABŞ, Fransa, Britaniya, Türkiyə, Səudiyyə Ərəbistanı və körfəz ərəb ölkələri Suriya hakimiyyətinə qarşı 70-dən çox dövlətin qatıldığı böyük bir koalisiya qurmuşdu. "Suriyanın dostları" klubu son illərdə hansısa dövlətə qarşı qurulmuş ən böyük ittifaq idi.

Ancaq indi qüvvələr nisbəti Bəşər Əsədin xeyrinə dəyişib. Təbii ki, Suriya münaqişəsi 5 il əvvəlki mahiyyətindən çıxaraq hakimiyyətə qarşı etirazdan beynəlxalq güclərin rəqabət meydanına çevrilib. Bir tərəfdə Qərb və onun yerli müttəfiqləri, digər tərəfdə isə dünyadakı antiqərb bloku yer alır.

Hələbin hökumətin nəzarətinə keçməsi uzun müddət davam edən məğlubiyyətdən sonra B.Əsəd hakimiyyətinin ən böyük və həlledici qələbəsidir. Ancaq bu, hələ savaşın bitməsi demək deyil. Çünki hazırda faktiki olaraq Suriya ərazisinin yalnız 25-30 faiz hissəsi hökumətin nəzarətindədir. Yerdə qalan ərazilərin böyük hissəsində İŞİD, bir hissəsində kürdlər, bir hissəsində isə digər islamçı qruplar və ASO yerləşib. Hökumətin əlində isə Dəməşq (paytaxt), hələlik müharibənin "ayağı dəyməmiş" Laziqiyyə, Tartus kimi şəhərlər, o cümlədən Homs, Hama kimi viran qalmış, ancaq əhalinin böyük hissəsinin yaşadığı mərkəz və qərb bölgələr var. Hələb raundu Rusiyanın uğuru olsa da, Suriyada savaş hələ uzun zaman davam edəcək. Ən azı tərəflər anlaşana qədər. Çünki hələlik qüvvələr nisbəti bir tərəfin üstünlüyündə deyil. Hələb savaşı zamanı İŞİD-in Palmiranı işğal etməsi Rusiya tərəfindən ABŞ provokasiyası olaraq dəyərləndirildi. Qəti bir söz demək mümkün olmasa da, Suriyada vəkalət savaşının hələ uzun müddət davam edəcəyi, tərəflərin bir-birini əzməyə, ağır zərbə vurmağa çalışacağı göz önündədir.

Suriya münaqişəsində Rusiyanın xeyrinə olacaq daha bir proses Türkiyənin Qərblə əlaqələrinin soyumasıdır. Amerikalıların kürdləri dəstəkləməsi Türkiyə ilə münasibətlər ciddi təsir edib və Moskva ilə Ankaranı yaxınlaşdırır. Son məlumatlara görə, Rusiya, Türkiyə və İran arasında Suriya münaqişəsi müzakirələri olacaq. Əgər bu danışıqlar başlasa, bu, o deməkdir ki, Suriyada ənənəvi cəbhə dağıla bilər. Bu isə münaqişənin həlli istiqamətində çox ciddi bir irəliləyiş olacaq.

❑ **KƏNAN**

YENİ MÜSAVAT
N 282 (6603) 19 dekabr 2016

# Azərbaycandan 100 milyon "qara pul" çıxarmış eks-məmurun ölkədən qaçış planı...

## 50 kilo qızıl oğurluğu ittihamı ilə qohumunu tutduran məmurun ölkədən birdəfəlik gedəcəyi haqda iddia var; müttəhim məhkəmədə Çingiz Baxşıyevin Avropa banklarına köçürdüyü milyonlardan danışıb...



**"Nəqliyyat Nazirliyinin sabiq məmuru Çingiz Baxşıyev ölkədən getmək istəyir. Qaçışa bərabər bu gedişin nə vaxt baş tutacağı tarix də bəllidir - dekabrın 25-də Çingiz Baxşıyev Azərbaycanı birdəfəlik tərk edəcək".**

Kifayət qədər inandırıcı görünən bu iddia "Yeni Müsavat"a Ç.Baxışyevin həbs etdirdiyi qohumu Rövşən Əhmədovun yaxınlarından daxil olub.

### Çingiz Baxşıyev kimdir və ölkədən birdəfəlik getməsinin səbəbi nədir?

Hazırda Bakı Ağır Cinayətlər Məhkəməsində hakim Rasim Sadıqovun icraatında Çingiz Baxşıyevin şikayəti əsasında həbs olunan Rövşən Əhmədovun cinayət işi araşdırılır. Şikayətçi iddia edib ki, yaxın qohumu olan R.Əhmədov onun 50 kiloqram qızılını ələ keçirib. Rövşən Əhmədov isə ittihamı qəbul etmir. Ç.Baxşıyevin qohumunu həbs etdirməsi haqda "Yeni Müsavat"ın 10 may 2016-cı il tarixli sayında yazmışdıq. "Sabiq müşavir haqda sensasion məlumatlar - özəl dosye" sərlövhəli (http://musavat.com/news/olke/sabiq-mushavir-haqda-sensasion-melumatlar-ozel-dosye_346167.html ttp://musavat.com/news/olke/sabiq-mushavir-haqda-sensasion-melumatlar-ozel-dosye_346167.html ) yazıda Ç.Baxşıyevin barəsində çox ciddi iddialar yer almışdı. Yada salaq ki, Ç.Baxşıyev uzun illər nəqliyyat sektorunda rəhbər vəzifələrdə çalışıb. Onun adı mətbuatın gündəminə bu ilin aprelində evindən 50 kiloqram qızıl oğurlanan məmur kimi gəlib. Məlum olub ki, sabiq müşavir xalası oğlu Rövşən Əhmədovdan hüquq-mühafizə orqanlarına şikayət yazıb, onu evindən 50 kiloqram qızıl oğurlamaqda suçlayıb. R.Əhmədovu bu şikayət ərizəsi əsasında həbs etsələr də, sonradan ona oğurluqla əlaqəli ittiham verməyiblər. Sabiq müşavirin işçisini dələduzluqda ittiham edib barəsində 3 aylıq həbs qətimkan tədbiri seçiblər. Bu kiçik uyğunsuzluğun arxasında gizlənən böyük məqamlar var.

### Çingiz Baxşıyevin gözdən-qulaqdan uzaq işlərini araşdıran olacaq?

Redaksiyamıza daxil olan məlumata görə, Rövşən Əhmədovun barəsində ərizə yazan günə qədər Çingiz Baxşıyevlə münasibətləri normal olub. Ç.Baxşıyevin tapşırıqları əsasında müxtəlif bağlamaları müxtəlif ünvanlara çatdırıb. R.Əhmədov daşıdığı bağlamaların içində pul, qızıl olmasından xəbərsiz olub. Sadəcə, tapşırıqları yerinə yetirməklə işini görüb. Bir sözlə, R.Əhmədov Ç.Baxşıyevin gözdən-qulaqdan uzaq işləri üzrə qeyri-rəsmi köməkçisi olub. Buna görə də Ç.Baxşıyevin şəxsi işləri ilə bağlı sirlərindən xırdalıqlarına qədər məlumatlı olub. Günlərin birində isə R.Əhmədov Ç.Baxşıyevin yanından uzaqlaşmaq istəyib və bu addımı sonradan onu həbsə aparıb. Əvvəlcə xalası oğlunu xeyli dilə tutmağa, özündən kənarlaşmasına imkan verməməyə çalışan Ç.Baxşıyev bunun mümkün olmadığını gördükdə hədələrə keçib. R.Əhmədova açıq mətnlə həbsə atılacağını, həbsdə həyatına son qoyulacağını deyib. Buna baxmayaraq, R.Əhmədov Ç.Baxşıyevdən uzaqlaşmaq qərarını dəyişməyib. Və məlum 50 kiloqramlıq qızılın oğurlanması iddiası ortaya çıxıb. İddia ittiham şəklinə salınıb və R.Əhmədovun həbsi gerçəkləşdirilib. İş məhkəməyə göndəriləndən və ictimiləşəndən sonra Çingiz Baxşıyev ittihamın sabun köpüyünə döndüyünün fərqinə varıb...

Odur ki, dekabrın 13-də baş tutan məhkəmə prosesindən əvvəl Çingiz Baxşıyev 8 nəfərin əhatəsində məhkəmə binası önünə gəlib. Onlardan beşi idmançı görkəmli kişi, 3-ü isə qadın olub. Çingiz Baxşıyevin yanındakı qadınlar Rövşən Əhmədovun həyat yoldaşı Xanım Əhmədovaya yaxınlaşaraq "bura niyə gəlmisiz, məhkəmə qapalı olacaq, çıxın gedin" deyiblər. Qadınlardan biri təhqiramiz ifadələr işlətməklə "hakimlərə də, dövlət ittiahmçısına da 20 min verməsik, dağılışın... " kimi fikirlər işlədiblər. X.Əhmədova həmin qadınların söylədiklərinə məhkəmə prosesi başlayana qədər əhəmiyyət verməyib. Məhkəmə başlayandan sonra Çingiz Baxşıyev prosesin qapalı keçirilməsini istəyib. Rövşən Əhmədovun vəkili Adəm Məmmədov prosesin qapalı keçirilməsi üçün əsasların olmadığını hakimin diqqətinə çatdırıb. Deyib ki, məhkəmədə intim məsələlər, ailədaxili münasibətlər araşdırılmır, dövlət sirri də yoxdur ki, dilə gətirilsin. Vəkil buna görə də hakimdən xahiş edib ki, Çingiz Baxşıyevin şifahi vəsatəti təmin edilməsin.

Hakim isə Ç.Baxşıyevin şifahi vəsatətini yerindəcə təmin edib, prosesi qapalı elan edib.

### "Çingiz Baxşıyevin atasında heç vaxt nəinki 50 kiloqram, heç 5 qram da qızıl olmayıb!"

Qeyd edək ki, bu qalmaqallı iş üzrə məhkəmə prosesi 1 aya yaxındır ki, davam edir. Dekabrın 13-dən əvvəl baş tutan prosesdə hakim Çingiz Baxşıyevdən qızıl-zinət əşyalarının mənbəyini soruşub. Haradan, nə vaxt, hansı hesabdan oğurlandığını iddia etdiyi qızılı aldığını açıqlamasını tələb edib. Çingiz Baxşıyev deyib ki, həmin qızıllar ona atasından miras qalıb. Rövşən Əhmədov isə məhkəmənin diqqətinə çatdırıb ki, Çingiz Baxşıyevin atası Nəriman Baxşıyev adi fəhlə olub. Nəriman Baxşıyevi vaxtilə Qırğızıstana sürgün ediblər. Ömrünün böyük hissəsini Qırğızıstanda sürgün həyatı yaşayıb. Çingiz Baxşıyev özü ailəsi sürgündə olduğu illərdə Qırğızıstanda kasıb bir ailədə dünyaya gəlib. Onun atası Nəriman Baxşıyevdə heç vaxt qızıl olmayıb.

"Hakimlər bilsinlər ki, Çingiz Baxşıyevin atasında heç vaxt nəinki 50 kiloqram, heç 5 qram da qızıl olmayıb. O qızılları hansı pullara aldığını ətraflı ailə üzvlərim hüquq-mühafizə orqanlarına yazıb. Həmin məktubların araşdırılmasının qarşısını Çingiz Baxşıyev alır. Burada bu nağılları uydurmaqla gizlətmək istədikləri əməllər var. Onun atasının qara qəpiyi də olmayıb" - deyə Rövşən Əhmədov məhkəmənin diqqətinə çatdırıb.

### 1 günün içində Avropadakı banka 1 milyon avro köçürüb

O deyib ki, Çingiz Baxşıyev Azərbaycana 2003-cü ildə gəlib. Həmin vaxt onun əlində bir qədər pul olub və həmin pula "Nizami" kinoteatrının yanında 1 otaqlı mənzil alıb. R.Əhmədov deyib ki, hazırda onun oğurladığı kimi təqdim olunan qızıl-zinət əşyalarını Çingiz Baxşıyev 2003-cü ildən sonra alıb: "Çingiz Baxşıyev həmin qızıl-zinət əşyalarını "Azəravtoyolservis" Departamentinin rəisi təyin olunandan bir müddət sonra almağa başladı. Bu illər ərzində onun yanında olmuşam. O dövrdə departamentin nəzdində olan torpaq sahələrini qeyri-qanuni yollarla özəlləşdirib satırdı. Həmin qızılların bir qismini, ilk partiyasını da məhz o pullara alıb. Sonradan isə onun qeyri-qanuni işlərinin sayı da artdı. Elə vaxt olub ki, 1 günün içində Avropadakı banka 1 milyon avro köçürüb. Elə ay olub ki, belə köçürmələr 20 milyon avroya qədər artıb. Onun qeyri-qanuni fəaliyyətini anlayandan sonra mən yanından uzaqlaşmaq istədim. O da məni şərlədərək həbs etdirməklə bildiklərimi kimsəyə deməyimin qarşısını almağa çalışır. Mən ölkə rəhbərliyinə, hüquq-mühafizə orqanlarının rəhbərlərinə dəfələrlə müraciət etmişəm. Amma çağırıb dinləyən, dindirən olmayıb ki, həqiqətləri deyə bilim. Bu gün mənim həbsdə saxlanılmağım da bildiklərimi deməyimin qarşısının alınmasına xidmət edir. Mənim heç bir günahım yoxdur. Araşdırın, görün Çingiz Baxşıyev hər gün qara böyük çantalarda hansı ünvanlara illərlə nə daşıtdırıb? Onun bu qədər əmlaka, 100 milyonlarla avroya sahib olması hansı biznesin gətirdiyi gəlirdir? Ölkədən pulları çıxarıb, indi də məni, ailəmi şantajla susdurmaq, ölkədən qaçmaq istəyir".

R.Əhmədovun həmin prosesdə kəskin çıxışından sonra ittihamın əsassızlığı faktlarla üzə çıxıb. Buna görə də Ç.Baxşıyev dekabrın 13-də baş tutan prosesin qapalı keçirilməsinə nail ola bilib. Qapalı keçən prosesdə Çingiz Baxşıyevin qızları - Fatma və Sevil sərbəst ifadə veriblər.

Bundan sonra Xanım Əhmədova Çingiz Baxşıyevin özünə və qızlarına suallar vermək istəsə də, hakim və dövlət ittihamçısı ona şərait yaratmayıblar.

Vəkil bildirir ki, hazırda Rövşən Əhmədovun həyat yoldaşı Xanım Əhmədova və qızı naməlum şəxslər tərəfindən izlənilir. Onların telefonlarına naməlum şəxslər zəng edərək hədələyiblər. Gecəyarısı evlərinin qapısı tanımadıqları şəxslər tərəfindən döyülür. Rövşən Əhmədovun ailə üzvləri baş verən hədə-qorxuların Çingiz Baxşıyev tərəfindən təşkil edildiyinə şübhə etmirlər.

Xanım Əhmədova Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi Mədət Quliyevə və baş prokuror Zakir Qaralova müraciət edərək onu qəbul etmələrini də xahiş edib.

X.Əhmədova müraciətində göstərib ki, Çingiz Baxşıyevin dövlət maraqlarına zidd olan qeyri-qanuni fəaliyyəti haqda bilgiləri açıqlamaq niyyətindədir.

Sabiq məmurun "qara biznes"nin Avropa Polis Təşkilatında araşdırılması istəniləcək

Yaxın zamanlarda həmin qanunsuz fəaliyyətdən əldə olunan çirkli pullarla bağlı ölkəmizdə fəaliyyətdə olan Avropa dövlətlərinin səfirliklərinə də dosyelər göndəriləcək. Həmin dosyelərdə "qara biznes"dən əldə olunan pulların hansı Avropa banklarına köçürüldüyü qeyd olunmaqla Avropa Polis Təşkilatında (Europolun" araşdırılması istəniləcək.

X.Əhmədova müraciətində xüsusi olaraq vurğulayıb ki, Çingiz Baxşıyev ona xəbər göndərərək həyat yoldaşı Rövşən Əhmədova 11 il cəza verdirəcəyini çatdırıb. Ona susmağı, danışmamağı tövsiyə edib: "Çingiz Baxşıyev Rövşən Əhmədovun ailəsinə çatdırıb ki, məhkəmə dekabrın 25-nə qədər Rövşən Əhmədova hökm oxuyacaq. Bundan sonra Çingiz Baxşıyev dekabrın 25-də Azərbaycanı birdəfəlik tərk edəcək".

Qaynağımız bildirib ki, Ç.Baxşıyevin ikili vətəndaşlığı var. O, Azərbaycan vətəndaşı olmaqla yanaşı Almaniya vətəndaşıdır. Onun Almaniya vətəndaşlığı almasının da maraqlı tarixçəsi var. Vaxtilə Qırğızıstandan Almaniyaya gedib və orada bir alman əsilli xanimla ailə qurub. Həmin qadından 1 övladı da var.

Ç.Baxşıyevin ölkədən çıxışının qarşısı alınmasa, o, Almaniyaya köçəndən sonra Azərbaycanda qeyri-qanuni yolla əldə etdiyi 100 milyona yaxın pulun geri alınması da mümkün olmayacaq.

Məlumatlara görə, Rövşən Əhmədovun bildikləri çoxdur, onu həbs etdirməklə Ç.Baxşıyev sirlərinin üzə çıxmasının qarşısını almağa çalışır. 800 manat maaş alan Ç.Baxşıyevin təkcə Bakı şəhərində dəyəri 100 milyon dollarla ölçülən əmlakları var.

Qeyd edək ki, iş üzrə növbəti proses dekabrın 23-nə təyin olunub.

❑ **E.HÜSEYNOV**

***P.S*** Yazıda adı hallanan hər kəsi dinləməyə, mövqeyini dərc etməyə hazırıq.

YENİ MÜSAVAT
N 282 (6603) 19 dekabr 2016



# Rusiya Azərbaycana da "İsgəndər" verə bilər, amma...

## Elxan Şahinoğlu: "Bakıda müzakirələrin aparıldığını zənn edirəm"

## Üzeyir Cəfərov: "Rusiya Azərbaycana qarşı həmişə qeyri-səmimi olub"

**Ötən həftə Rusiya baş nazirinin müavini Dmitri Roqozinin Bakıda olması bəzi müzakirələr yaratdı. Azərbaycan-Rusiya hökumətlərarası iqtisadi komissiyanın iclası çərçivəsində Azərbaycana səfər edən Roqozin ölkə iqtidarı ilə əsas məsələlər barədə müzakirələr apardığını qeyd etdi.**

Rusiya baş nazirinin müavininin Bakı səfərinin vaxtı məlum olandan sonra politoloq Elxan Şahinoğlu bildirmişdi ki, Kreml rəsmisi Bakıya yeni və cəlbedici müqavilələrlə gəlməli və son vaxtlar Ermənistana peşkəş verdikləri "İsgəndər" raketlərinin Azərbaycan tərəfdən alınmasına "yox" deməməlidir.

Politoloqun bu fikirləri Rusiya rəsmisinin səfəri başa çatandan sonra bir daha gündəmə gəlib. Belə iddialar var ki, onun Bakı səfərində müzakirə edilən məsələlər sırasında əsas yerlərdən birini də "İsgəndər" raketləri tutub.

E.Şahinoğlu "Yeni Müsavat"a açıqlamasında məsələ ilə bağlı bunları dedi: "Dmitri Roqozinin Bakı səfəri zamanı Rusiyanın Azərbaycana "İsgəndər" raketlərinin satılıb-satıla bilməyəcəyi sualı ətrafında müzakirələrin aparıldığını zənn edirəm. Sadəcə, bu məsələ Roqozinin səlahiyyətində deyil. Bu qərarı Rusiya hərbi sənaye kompleksin ilə Kreml birlikdə verməlidir. Ancaq rəsmi Bakı bu cavabı gözləmədən artıq İsraillə anlaşıb və bu ölkədən alacağımız raket müdafiə sistemləri "İsgəndər" raketlərini neytrallaşdırmağa imkan verəcək".

Hərbi ekspert Üzeyir Cəfərov hesab edir ki, Azərbaycan Rusiyadan "İsgəndər" raketlərini almamalıdır: "Bu gün Rusiya üçün fərqi yoxdur, təki malı satılsın. Bir növ insanların bədbəxtliyi üzərindən bu ölkə öz xoşbəxtliyini qurur. Roqozin Bakıya gəlib və sözsüz ki, bu məsələ müzakirə edilib. Yəqin ki, böyük ehtimalla Azərbaycan tərəfin





könlünü almaq, bir növ üzrxahlıq etmək üçün bu təklifi edib. Düşünürəm ki, Azərbaycan tərəfin Roqozinə o qədər diqqət yetirməsinə böyük ehtiyac yox idi. Dekabrın 17-də səhər saatlarında 15-20 maşının Roqozini şimal istiqamətə, yəni sərhədə aparmasının şahidi idim. Sanki o sərhədə getməklə rus gömrükçülərinin Azərbaycandan bu ölkəyə gedənləri incitməsinin qarşısını alacaqdı. Roqozin bu gün gəldi, getdi, üç gündən sonra eyni vəziyyət yenə təkrar olunacaq. Rusiya Azərbaycana qarşı hər zaman qeyri-səmimi olub. Ola bilər ki, bəzi siyasətçilərimiz və dövlət rəsmiləri Rusiyadan nəyisə gözləsinlər, amma son 20 il göstərdi ki, Dağlıq Qarabağ məsələsinin həll olunmamasının birbaşa səbəbkarı odur. Rusiya bu məsələnin həllində maraqlı deyil. İndiyə qədər bir dəfə də olsun, Rusiya Ermənistanın Azərbaycan torpaqlarını işğal etdiyini dilinə gətirməyib. Roqozinin Bakı səfəri İsrailin baş nazirinin bundan öncə ölkəmizdə olması və Azərbaycan prezidentinin İsraildən silah alınması prosesinin davam edəcəyi ilə bağlı fikirlərindən qaynaqlanırdı - baxmayaraq ki, burada eyni vaxtda Azərbaycan-Rusiya hökumətlərarası iqtisadi komissiyaların iclası nəzərdə tutulmuşdu. Rusiya maliyyə imkanları kifayət qədər yüksək olan Azərbaycanı itirməmək üçün bu təklifləri irəli sürür. Məni sevindirən odur ki, Azərbaycan ordusunda rus istehsalı olan silahların sayı 90-cı illərdə 100% idisə, indi bu dəfələrlə aşağı düşüb, düşməkdə də davam edir. Rusiya ikibaşlı oyun oynayır, işğalçını silahlandırır, işğalçıya mənəvi dəstək olur, onunla birlikdə hərbi birləşmə yaradır. Roqozinin səfəri ölkəmizə heç nə verəsi deyil. Bu səfər Rusiyanı bu gün düşdüyü iqtisadi vəziyyətini düzəltmək üçündür. Çalışırlar ki, Azərbaycanın da maddi imkanlarından yararlansınlar. Sözdə Azərbaycana, əməldə isə hər addımbaşı Ermənistanın yanındadırlar. Roqozinin Bakı səfərini sırf Rusiya maraqları çərçivəsində qiymətləndirmək lazımdır".

❑ Cavanşir ABBASLI

# ABŞ-dan prezidentə əfv üçün məktub göndərildi

**Əlil-arestant Rauf Sultanovun ABŞ-da yaşayan yaxınları onun əfv olunması üçün ölkə rəhbərliyinə məktub yazıblar. R.Sultanovun bacısı Aynur Sultan Gülişık tərəfindən imzalanan məktubda əlil-arestantın əfv ediləcəyinə ümid ifadə olunur:**

"Hörmətli prezident! Əfv Komissiyasına təqdim edilmiş sənədlərdən görünür ki, qardaşım və hər iki valideynimiz əlildirlər. Rauf Sultanov sağalmaz xəstəlikdən əziyyət çəkir. Ona qarşı şikayət və tələb yoxdur. Bu gün də həbsdə ikən həkim nəzarətindədir. Müsbət xarakterizə olunur. Ölkədaxili hüquq müdafiə vasitələri tükənib. Qardaşımın həbsdən azad olunması yalnız sizin əfv fərmanınız vasitəsi ilə mümkün ola bilər. Ailəmiz ümid edir ki, humanizm prinsiplərin əsas götürülərək Rauf Sultanov əfv olunaraq azad ediləcək".



Qeyd edək ki, anadangəlmə epilepsiya xəstəsi olan 1-ci qrup əlil Rauf Sultanov 3 il 2 ay müddətinə azadlıqdan məhrum olunub. Hazırda Penitensiar Xidmətin Müalicə Müəssisəsində saxlanılır.

❑ E.MƏMMƏDƏLİYEV

# Populyar olmaq istəyirsənsə, söyülməkdən qorxma



Samir SARI

**Başqa ölkələri bilmirəm, amma bizim ölkənin sosial şəbəkə istifadəçiləri bir başqa cürdür.**

Bizim şəbəkəçilərin çoxu siyasətçidir, əksəriyyəti hansısa partiyanın üzvü və ya tərəfdarıdır - hər gün prinsipial siyasi mübarizə aparır, hakimiyyətlə (iqtidardakılar isə müxalifətlə) və digər rəqibləri ilə virtual şəkildə çarpışırlar.

Bizimkilər çoxu siyasətşünasdır, hər şey bilirlər - dünyada gedin qlobal siyasi proseslərdən tutmuş, ta ölkədə hakimiyyətə gəlməyin nəzəri yollarına qədər hər şeyi. Çoxu əmindir ki, dünyada nə baş verirsə, hamısı ABŞ və İsrailin oyunudur, eyni zamanda Avropalı siyasilər yaramazdır və Rusiyaya heç kim bata bilməz.

Bizdə futbol azarkeşi (hətta mütəxəssisi) olan sosial şəbəkə istifadəçiləri başqa ölkələrdə olduğundan qat-qat çoxdur. Bizimkilər yeri gələndə Mourinyoya, Qvardiolaya, Ranyeriyə, Şenol Günəşə, Zidana, Simoneyə taktika öyrətməyə meyllidirlər. Yaxşı ki, adları çəkilən futbol mütəxəssisləri bu barədə yazılan statusları oxumurlar, oxusalar, türkün sözü, kafaları qarışar.

Feysbuk çıxalı bizdə jurnalistlərin sayı birə yüz artıb. Özünə səhifə açanların hamısı bu və ya digər şəkildə jurnalistdirlər, jurnalizmlə məşğuldurlar - gördüklərini, düşüncələrini yazır, şəkil çəkib paylaşırlar.

Sosial şəbəkədə hər şey üzrə ekspertlər də çoxdur - şərh yazırlar, rəy bildirirlər, dərs keçirlər, uzman olaraq yekun fikir bildirirlər və s.

Bir ara feysbukda şairlər və yazıçılar da çoxalmışdı. Məsələn, 2-3 il öncə Kulis.az saytı qısa hekayə müsabiqəsi elan etmiş, 50-yə yaxın qələm adamının yarışa qoşulacağını proqnozlaşdırmışdı, amma qısa hekayə yazanların sayı 500-ü keçib 1000-ə yaxınlaşanda, münsiflər çaş-baş qaldı.

Belə baxanda bizdə sosial şəbəkələr insanların potensialını üzə çıxarır, bəzən burada istedadlı adamları (mahnı oxuyanlar, maraqlı şeylər yazanlar və s.) kəşf eləmək olur.

Ancaq bizim sosial şəbəkə istifadəçilərinin yekə bir minusu var, bu da ondan ibarətdir ki, çoxunun əlində balta, qılınc, qamçı, çamur var. Elə bir gün olmaz ki, kimisə yıxıb sürüməsinlər, yerə uzadıb baltalamasınlar, kölgəsini qılınclamasınlar, yaxasından yapışıb qamçılamasınlar, üstünə çamur atmasınlar.

Artıq çox adam sovet dövründə və yaxud iki-üç il öncəyə qədər olduğu kimi mətbuatdan qorxmur, amma sosial şəbəkədə istifadəçilərin hədəfi olmaqdan qorxur. Çünki adam özü barəsində yazan bir qəzetə, iki sayta müraciət, etiraz edə bilər, amma yüzlərlə istifadəçinin hansına zəng eləsin, hansıyla mübahisəyə girişsin. Mümkün deyil.

Tərs kimi, bizdə userlər çox ayıq-sayıqdırlar, ağzından quş buraxanın birini boş qoymazlar. Bir də gördün, şəbəkəyə hay düşdü, adə, qoyma, filan deputat filan sözü deyib. Bu bəsdir. Dərhal onlarla adam vurucu-qırıcı mövqedən statuslar yazır, minlərlə istifadəçi bənzər şərhlər qeyd edir, bir neçə min istifadəçi də onların yazdıqlarını bəyənir.

Sosial şəbəkədə söyülməyi ciddiyə alan adamlar əvvəldə tablaşa bilmirlər, hövllənirlər, əsəbiləşirlər, xalqa izahat vermək, hər şeyin əslində başqa cür olduğunu, elə deyərkən bunu nəzərdə tutmadıqlarını bildirirlər. Amma artıq ikinci, üçüncü dəfədən sonra öyrəşirlər. Bir qədər sonra daha pis vərdiş əmələ gəlir, bu təxminən məşhur lətifədəki "zənci sindromu" ("zəncilər evdədirmi", "yox", "onda ta nəyə gəlirəm" məsələsi) kimi bir şeydir, bu dəfə onlar söyülmədən dayana bilmir, istifadəçilərə yeni-yeni mövzular verirlər. İstifadəçilər söyür, söyülənlər isə qımışa-qımışa özləri barədə yazılan status və şərhləri oxuyurlar.

Amma bu işin bir incə xüsusiyyəti var, gərək özünü hədəfə çıxarmağın vaxtını biləsən. Elə ola bilər ki, paslı gülləyə layiq söz deyərsən, zamanına düşməz, sənə heç iki yağsız status da həsr edən olmaz. Elə də olar ki, sözə həssas ünvanlara güldən ağır söz atarsan, adamın və ya o ideyanın tərəfdarları itli-pişikli üstünə tökülər, səni virtual aləmdə linç edərlər.

Populyar olmaq istəyirsənsə, gərək sosial şəbəkədə söyülməkdən qorxmayasan. Virtual söyülmələrin bir-iki gün ömrü olur, ertəsi gün hər şey unudulur. Amma populyarlıq qalır. Xroniki şəkildə söyülüb populyarlıq qazanandan sonra bir gün ağıllı, müdrik sözlər yazır, düzgün mövqe tutursansa, olursan virtual aləmin gözünün işığı.

YENİ MÜSAVAT
N 282 (6603) 19 dekabr 2016

# Seks-agentlər harda və necə yetişdirilir - Həmid Herisçinin yazısı

## Əsas tələb - bir neçə xarici dil bilib cazibədar zahiri görünüşə malik olmaqdır...

**2002-ci ilin əvvəlində tanınmış teleaparıcı, müxalifətçi Sergey Kiselyova qarşı Rusiya mətbuatında başlanmış qara piar kampaniyası özünün pik nöqtəsinə qalxır. Müxtəlif saytlar anons verirlər ki, guya ixtiyarlarında Kiselyovun pornokasetləri var. Bəs guya tezliklə bu videogörüntülər geniş tamaşaçı auditoriyasına ötürüləcək.**

Anonsçular öz vədlərinə dönük çıxmırlar. Lazımi vaxtda pornogörüntülər saytlara ötürülərək bütün Rusiya Federasiyasında tirajlanır. Kasetdəki "gecə böcəkləri"ndən birinin - Yelena Stebunovanın, izinə düşən jurnalistlər tezliklə gəlib çıxırlar Moskvadakı Krijanovski küşəsi, ev 32, mənzil 69 ünvanına. Lakin artıq gecdi. Yelenanı əvvəlcə boğub sonra alnına güllə sıxan qatilləri isti-isti aşkarlamaq mümkün olmur.

Qatillər bu ünvana vaxtlı-vaxtında, jurnalistlər isə çox gec gəlmişlər. Ölümündən azca əvvəl, sən demə, Yelena Stebunova Moskva mətbuatına məlum pornokaset barədə detallı müsahibə verməyə hazırlaşırmış. Videogörüntülərdəki iyrənc sadomazoxizm səhnələrə şərh verməyə razılaşan Yelena kadrlarda vaxtaşırı görünən saqqallı kişinin məhz Kiselyov olduğunu da müsahibəsində təsdiq etməliymiş.

Ancaq cinayət işini, "qara piar"ı indi saxlamaq mümkün deyil. Jurnalistlər araşdırmalarını davam etdirərək Sergey Kiselyovla əlaqədə olmuş digər xanımların telefon nömrələrini, adreslərini mətbuata ötürməyə başlayırlar. Moskvada əsl vay-şivən qalxır. Həyatını təhlükədə görən bir çox "gecə böcəyi" təcili olaraq şəhəri tərk etməyə məcbur qalırlar.

***

Ancaq, əgər bu qızlar, məşhur Rusiya seks-agenti Anna Çapman kimi, məxfi təlimlərdən keçsəydilər, yaranmış panikaya qapılmaz, öz adi məhəbbət işlərinə sakitcə davam edərdilər. "İş" deyəndə ki, Çapmanın ABŞ-dakı ana hədəfi - Barak Obama administrasiyasındakı yalqız vəzifə sahibləriymiş. Anna Çapman barədə müstəntiqlərə verdikləri səmimi ifadələrində həmin vəzifə sahibləri rus afətinin sərhədsiz seksual temperamentini xüsusi zövqlə qeyd edirdilər.

Anna Çapman kimi "seksagent" adını qazanmaq isə hər adamın, bağışlayın, hər "gecə böcəyi"nin işi deyil. Deyilənlərə inansaq, Moskvanın bəzi məxfi ünvanlarında sovet zamanında olduğu kimi, indi də sırf peşəkar seks-agentlər hazırlanır. Malaxovka qəsəbəsindəki İdman İnstitutunda gələcəyin "Romeo"ları təlim keçir, "Xarici Dillər İnstitutlarında" isə adamın ağlını başından çıxaran Çapman kimi dünya gözəlləri.

Təcrübəli əməliyyat işçiləri, 5-7 il ərzində buralarda təhsil alıb sonra real şəraitdə sınaqdan keçirdilirlər. Əsas tələb bir neçə xarici dil bilib cazibədar zahiri görüşə malik olmaqdır. Tədris proqramının əhatə dairəsi zəngindi (məxfi foto və video çəkmək istedadı, izlənmədən







yayınmaq bacarığı, mətnləri şifrələyib lazımi ünvana çatdırmaq, hər cür silahdan istifadə etmək və s. və ilaxır).

Məşhurların seksual instinktləri, sapıntıları, təəssüf ki, həmişə nəzarətdə olub, bundan sonra da olacaq. İsveç Təhlükəsizlik Xidməti "SAPO"nun sabiq şefi Olof Franstedt öz memuarlarında yazır ki, Brejnevin oğlu Yuriy üçün vaxtilə Stokholmda bu cür tələ hazırlanıbmış. Britaniyanın Mİ-6 kəşfiyyatının "Enn" adlı seks-agenti, sadəlövh Yuri Brejnevi Stokholmdakı bir eyş-işrət məclisinə sürükləyib gətirməli, soyundurub yatağa salmalı, sonra bütün bu səhnələri lentə almalıymış.

Ancaq əməliyyat hələ start götürməmiş Yuriy təcili olaraq Moskvaya çağırılır. Sonralar bəlli olur ki, İsveç kəşfiyyatının Stiq Berlinq adlı əməkdaşı, əməliyyatdan xəbər tutunca dərhal onun bütün incəliklərini Moskvaya ötürüb.

Çağdaş Türkiyədə isə, "seks dosyesi" siyasi həyatın ayrılmaz hissəsinə çevrilib. Dəniz Baykalın siyasi karyerasına son qoymuş "kaset olayı" göstərir ki, Türkiyədə Qərbdəki kimi, seks agentlər dəbdə deyil. Türkiyədə siyasi rəqiblər sadəcə, bir-birilərini aylarla, illərlə güdüb barəsində "dosye" toplayır, "X saatı"nda həmin kompromatı mass-media səhifələrinə ötürürlər.

***

Amma dünyada ad çıxarmış seks-agentlər sırasında ən bacarıqlısı, peşəkarı rus deyil, ingilis deyil, alman deyil, çinlidir. Şi Peypu adlı opera solistidir. Fransızcanı ikinci ana dili kimi bilən seks-agentin casus epopeyası 1964-cü ildə başlayıb. Cazibədar Şi iyirmi yaşlı fransız diplomatı Bernar Bursiko ilə ilk dəfə Fransız səfirliyində keçirilən növbəti milad şənlikləri zamanı görüşür. Əyindəki kişi kostyumunu məcburən geydiyini söyləyən Şi elə ilk baxışından yazıq Bernarın saqqızını oğurlamağa müvəffəq olur. İsrar edir ki, oğul arzusu gözündə qalmış atası uşaqlıqdan ona kişi paltarları geyindirir, kişi kimi böyüdür və s. və ilaxır. Amma özü guya qadındır.

Tezliklə bu münasibətlər seksual səhnələrlə zənginləşib Bernarı əməlli-başlı valeh edir. Yarıplutonik hisslər Bernara imkan vermir ki, o həqiqəti anlayıb Şi Peypunun qadın yox, kişi olduğunu hiss etsin.

1965-ci ildə Şi öz fransalı sevgilisinə şad xəbər çatdırır ki, bəs guya hamilədir. Sonra o, bu əfsanəni lap inkişaf etdirib axırda Bursikonu guya öz "oğlu" ilə tanış edir (uşaq, öz doğma valideynlərindən zorla ayrılmış bir uyqur balasıymış). Məxfi informasiya sənədlərinin Çin kəşfiyyatına ötürülməyi ilə müşayiət olunan bu görüşlər əvvəl-axır Fransa əks-kəşfiyyatına məlum olur.

Cütlük uzun müddət izləndikdən sonra nəhayət 30 iyun 1983-cü ildə həbsə alınır. Dindirmələr zamanı bəlli olur ki, bəs Şi Peypu qadın yox, kişidir, uşaq-zad da doğa bilməz. Bernar bir müstəntiqə baxır, bir qarşısındakı övladına. Sonra qəfil özünü pəncərədən küçəyə atıb intihar etmək istəyir. Tezliklə mövzu qəzetlərin manşetlərini bəzəyərək dönür əsl sensasiyaya. Məhkəmə salonu tamaşaçı izdihamını daha öz dar divarları arasına sıxışdıra bilmir. Casus cütlüyü kimi 6 il həbs cəzasına məhkum edilən sevgililəri, bir il sonra Fransa prezidenti Fransua Mitteran öz xüsusi əmri ilə əfv edib azadlığa buraxır. Qazamatdan sonra Parisdə qalıb vətəninə geri dönməmək qərarını verən Şi Peypu çəkilir tənhalığa. 2009-cu ildə müəmmalı şəkildə dünyasını dəyişən Şi Peypu həm də peşəkar qələm sahibi, Çin Yazarlar Birliyinin tanınmış üzvüymüş.

Uzun müddət bütün dünya mətbuatının marağını özünə cəlb edən bu süjet, axır öz burulğanına kino sənətini də dartmağı bacarır. 1993-cü ildə rejissor Devid Kronenberq, əfsanəvi Şi Peypu epopeyasını "Madam Batterflay" filmində əks etdirərək dünya şöhrəti qazanır.

***

Siyasi rəqiblərini sıradan çıxarmaq istəyənlər, seks-agentlərin zəngin təcrübəsindən geniş istifadə edirlər. Misal üçün, Səddam Hüseyni, Ben Ladeni gözdən salmaq naminə Amerika Mərkəzi Kəşfiyyat İdarəsi, hətta onların oxşarlarından istifadə etməyi planlaşdırırmış. Çəkiliş, deyilənə görə, Hollivud pavilyonlarında səhnələşdirilib lentə alınmalıymış. Aktyorlar, qrim otaqlarından çıxıb videkameralara tərəf gedərkən qəfil "yuxarılardan" zəng gəlib. Telefon dəstəyini ağzına sıxan anonim məmur rejissora deyib ki, daha bəsdi, bu ağ oldu lap, çəkilişləri yarıda qoyub evlərinizə dağılışın.





Aktyorluq, seks-agentlərin əsas vurucu silahlarından biridir, ancaq əsası deyil. Əsas hədəf, düşməni qətlə yetirməkdi. Seks-agentlər bu cür məxfi əmrləri həyata keçirərkən həmişə yüksək peşəkarlıq nümayiş etdiriblər. Bunun ən qədim nümunələrindən birinə yəhudi salnamələrində rast gəlinir. Asuriya hökmdarı, qaniçən Olefernin əlindən təngə gələn yəhudilər, axır qərara gəlirlər dünya gözəli Yudifi gecəyarısı onun çadırına göndərsinlər. Yəhudi gözəli, Olifernə səhərəcən kef verib, axır onu şil-küt salır. Görəndə Olifern yuxulayıb, qılıncı əlinə alıb başını kəsir. Qoltuğundakı məşum qənimətlə özünkülərinin düşərgəsinə qayıdıb tapşırığı can-başla həyata keçirir.

İndi, həmin "Yudif" kodlu seks-agentlər, deyilənə görə, Mossad casuslarının 20 faizdən çoxunu təşkil edir. Agentlər kimin desən, hətta ölkə prezidentlərinin yatağına belə girə bilərlər. Seksdə "dur!" nədi bilməz, ancaq lap axırda öz sevgililərini mütləq qətlə yetirərlər. Belə Yudiflərdən birinin - Monika Levinskinin toruna düşmüş ABŞ prezidenti Bill Klinton, hələ yaxşı qurtarıb. Tale, onu Olifernin acı aqibətindən deyəsən özü qoruyub. O vaxtlar, demokratların bu xarizmatik lideri Yaxın Şərqdə sülh prosesini körükləmək, İsrail və Fələstin liderlərini bir masa arxasında əyləşdirmək istəyirdi. Ağ Ev əməkdaşları, Fələstin lideri Yasir Ərəfatı o vaxtlar Klintonun qapısı önündə tez-tez görərmişlər. Mərhum Ərafat, saatlarla dəhlizdə oturub qapının açılacağı vaxtı səbirsizliklə gözləyirmiş.

Acı səhnəni təəssüf hissiylə izləyən məmurlar adətən bu vaxt bir-birinin qulaqlarına pıçıldayarmışlar: "İçəridəki görünür Monika Levinskidi. Prezidentimizə mane olmayaq. Yazıq Ərafat, deyəsən bu gün, əvvəlkindən çox sürdü Klintonun seks naharı..."

***

Azərbaycanda oxşar olaylar hələ ki dünya standartları, təcrübəsi səviyyəsində görünmür mənə. Bizdə bu sahə məxfi qurumlardan çox dələduzların at oynatdığı bir sahədir. Ötən günlər "seks kasetləri"ni əlində bayraq edib bəzi məmurları şantaj edən mütəşəkkil cinayətkar dəstə üzvləri - qondarma jurnalistlər həbs edilib. Hadisəyə aidiyyəti qurumların deyil, MTX-nin müdaxiləsi, düzü, ictimaiyyətdə təəccüb hissi doğurub. Cavabsız suallar göydə qalıb. Hadisədən, düzü, gözüm su içmir mənim.

O ki qaldı Eldar Mahmudovun ixtiyarındakı 2700 seks kaset söhbətlərinə, onların yerini məncə indi Elşad Abdullayev yaxşı bilər.

Hələlik bu qədər.

YENİ MÜSAVAT
N 282 (6603) 19 dekabr 2016

**"Baxış bucağı"**

**Milli Məclisdəki büdcə müzakirələri zamanı ölkə səhiyyəsindəki durum və icbari tibbi sığortaya keçilməsi zərurətindən də çox danışıldı. Azərbaycan vətəndaşının ölkə səhiyyəsinə inamını bərpa etməklə yanaşı, tibb sahəsində çalışanların əmək haqqının artırılması istiqamətində ciddi addlımların atılması da vacib məsələlərdən hesab edilsə də, indiki maliyyə böhranı şəraitində bu, o qədər də real görünmür. Deputat, ürək-damar cərrahı, tibb elmləri doktoru, Azərbaycan Ürək və Sağlamlıq Assosiasiyası İdarə Heyətinin sədri Rəşad Mahmudovla bütün bunlar barədə danışdıq.**

# "Azərbaycanda yaxşı həkimi xalq dolandırır"

**Rəşad Mahmudov:** "Türkiyədə terapevt təhsilini bitirdikdən sonra gedib dövlət xəstəxanasında işlədiyi zaman dövlətdən aldığı rəsmi maaşı 4-5 min dollardan başlanır"

***- Rəşad həkim, parlament fəaliyyətinizin 1 ili tamam oldu. Necə bilirsiniz, bu, sizin qazanılmış ilinizdir, yoxsa itirilmiş?***

- Birmənalı olaraq, əlbəttə ki, qazanılmış il sayıram. Çünki öz peşəkar fəaliyyətim xaricində belə bir siyasi hadisəyə öz iradəmlə girdiyimə görə kənardan göründüyündən fərqli olaraq, bu ab-havanın içində olmaq, dünyaya, həyata, siyasətə baxış baxımından bəlkə də bu, mənim ən rəngli illərimdən biri oldu.

***- Bu da var ki, siz ölkədə yaxşı həkim, gözəl ürək cərrahı olaraq məşhurlaşdınız. Parlament fəaliyyəti sizin zamanınızı almır ki?***

- Əgər həqiqətən sevdiyin və dəyər verdiyin bir sənətlə məşğulsansa, gün 24 saat deyil, 48 saat, il 365 deyil, 1000 gün olsa belə, yenə sənə zaman yetməz. Allah-Təalanın da bizə verdiyi ömür içərisində tələbəlik, aspirantura, doktorantura təhsilləri, aldığım elmi adlar zamanı öyrənmə mərhələsində olduğum kimi, son 10 il ərzində Azərbaycanda həm peşəkarcasına öz sahəmdə çalışmaqla yanaşı, həm də bir məktəb yaratmağa çalışdıq. Artıq şöbəmizin 120-yə yaxın işçisi peşəkarlıqla öz sahəsinin dərinliklərini bilməkdədir. Vətəndaş olaraq da əlbəttə ki, bu gördüyüm işlərlə birlikdə sadəcə əməliyyat etmək və insanların sağlamlığının keşiyində durmaq deyil, məktəblər yaratmaq və eləcə də ali qanunverici orqanda ölkə səhiyyəsinin bugünkü vəziyyəti, gələcək inkişafı, gələcəkdə insanların səhiyyənin var olan vəziyyətindən daha çox istifadə etməsi, sadə dildə desək, bu gün həkim kimi tanınan Rəşad kimi yüzlərlə həkimin, tibb işçisinin öz işini daha rahat şəkildə həyata keçirə bilməsi, öz işindən razı olması, xəstələrin həkimdən və səhiyyədən razı qalması önəmli məsələdir. Subyektiv bir xidmət sahəsi olduğuna görə qanunverici bazada nə qədər çox görülmüş işlər olsa belə, həm icraedici, həm qanunverici sistemdə hər gün yeniliklərin vacib olduğu sahələrdəndir. Ona görə də mən bunu qarşıma məqsəd qoyaraq gəldim ki, bu gün ən azı səhiyyənin içində olan şəxs olaraq həm səhiyyə işçilərinin problemlərinin həlli və onlar üçün daha rahat iş şəraitinin yaradılması üçün qanunverici orqanda bəlli bir işlər görməyə çalışım.

***- Həkim, icbari tibbi sığorta ilə bağlı gözləntilər hələ ki, reallaşmayıb. Yalnız indi pilot layihələrə başlanılması qərara alınıb.***

- Son bir illik müddətə baxsaq, 25 illik müstəqillik dövründə Azərbaycanda ən çox işlər elə son ildə görülüb. "İcbari tibbi sığorta haqqında" qanun 17 ildən artıq idi ki, var idi, amma son bir il ərzində ən azı pilot layihənin hazırlanması reallaşıb. Bununla bağlı prezident sərəncamı var və hazırda iki rayonda proses başlanıb. Bu, 25 illə müqayisədə bir ildə görülən çox böyük işdir. Dediyim kimi, səhiyyə xidmət sahəsi və subyektiv dəyərlərə malik olduğuna görə, başlamaq hər şeyin bitməsi, yaxud gözəl nəticə almaq mənasına gəlmir. Bu, hər gün üzərində işlənilməsi lazım olan və multifaktorial hadisələrə dayalı xidmət sahəsidir. Yəni xəstənin, tibb işçilərinin dövlətin istək və arzuları, bunların bir yerdə olması, bütün bunların doğru şəkildə tənzimləmək, elmin və tibbin var olan imkanlarının maksimal şəkildə insanlara çatdıra bilmək, lazım olan vəsaitin ortaya qoyula bilməsi, bunun mənbəsinin tapılması kompleks həll olunmalı məsələdir.

***- Ağrılı bir məsələdir ki, ölkə səhiyyəsində etimad məsələsi heç də ürəkaçan səviyyədə deyil. Qonşu ölkələrə axın da bunu təsdiqləyir. Bunun səbəbləri barədə nə deyə bilərsiniz?***

- Bunun təməlində bir neçə faktor var. Mən hadisəyə bir az fərqli aspektdən yanaşacağam. Həqiqət odur ki, sadəcə, bizim ölkəmizdə deyil, postsovet ölkələrində bənzər situasiya hökm sürür. Deyək ki, Rusiya və İranın müqayisəsini aparsaq, tibbə inamda çox böyük fərq var. Rusiyanın tibbi xidmətinin səviyyəsi bəlkə digər postsovet ölkələrindən yüksək ola bilər, amma Rusiya vətəndaşı imkanı olan kimi qalxıb Avropa ölkələrinə gedir. Bəs, nəyə görə bir İran vətəndaşı buna ehtiyac hiss eləmir? Nəyə görə postsovet ölkələrində bu inamsızlıq var? Məncə, əslində bu yaranın təməli Sovetlər Birliyi qurulduğu günlərdə qoyulub. SSRİ-nin ilk səhiyyə naziri Semaşko olub. Mənə görə ümumiyyətlə, sovet sisteminin tibbinin bugünkü reallıqlarının təməlində onun bir kəlməsi durur. O zaman büdcə hazırlıqları zamanı maaşla əlaqədar müzakirələr gedərkən səhiyyə naziri belə deyir ki, pis həkimə 100 rubl çoxdur, yaxşı həkimin maaşa ehtiyacı yoxdur, onu xalq dolandırar. Mən fəlsəfi olaraq bu düşüncənin sovetlər sistemindəki bütün respublikaların səhiyyə sisteminin iflic olmasının səbəbi olaraq görürəm. Yəni məsələlər həkimin şəxsiyyəti, onun şəxsi bacarıqları üzərində qalıb. Halbuki səhiyyə bir sistemdir, bu sistemin içərisində bir şəxsin yüksək bilgiyə sahib olması əsas deyil, səhiyyə sisteminin 24 saat ərzində doğru bir şəkildə işləməsi lazımdır. Bunun içərisində maliyyə işləri, dərmanların, tibbi ləvazimatların doğru tədarükü, ölkənin hansı hissəsində hansı xəstəxananın hansı yataq sayında olması məsələsi, həmçinin elmi-texniki bazanın gecə-gündüz inkişaf etdirilməsi var.

***- Digər ölkələrlə müqayisəli təhlil nə deyir?***

- Mən inkişaf etmiş ölkələrdən danışmıram. İnkişaf etməkdə olan, normal tibbə malik ölkələrin səhiyyə büdcələrinə baxın. Bugünkü qiymətlərdən, rəqəmlərdən danışmaq istəmirəm. Sadəcə, bir şey deyəcəyəm: ümumi daxili məhsulun 5 faizin altında büdcədən dəyər biçilən səhiyyələrin vəziyyəti çox pisdir. Amma postsovet ölkələrinin çoxunda bu dəyər 1 faizin altındadır.

***- Həkimin maaşının aşağı olması da faktdır. Eyni zamanda, əhalinin yoxsul təbəqəsi də Semaşkonun dediyi kimi, həkimi dolandırmaq imkanına sahib deyil. Belə olan halda indiki keçid dövrü üçün çıxış yolu, sizcə, nədir?***

- Əlbəttə ki, ağlın, məntiqin yolu birdir. Dünyanı yenidən qurmağa və yaxud nələrisə sübut etmək üçün yeni ideyalar ortaya atmağa ehtiyac yoxdur. İnkişaf etmiş ölkələrdə və öz xalqının güvənini qazandığı tibb sistemlərində hansı yolları keçiblər, bu, ortadadır. Onların nümunəsini doğru bir şəkildə götürüb ölkəmizdə tətbiq etdiyimiz zaman inanıram ki, doğru nəticələrə gələ bilərik. Amma tibbin bu vəziyyətdə olması sadəcə, 2016-cı ilin problemi deyil, təməli uzun illərə dayanan bir məsələdir. Deyir həyatda bir şeyə necə yanaşırsansa, o, sənə eyni reaksiyanı verər. Tibb fakültəsi ən yüksək balın tələb olunduğu sahə olub həmişə. Yaxşı, qəbul olunduqdan sonra hamı 4 il oxuduğu halda, nəyə görə bu fakültədəkilər 6 il oxuyur? Demək bu sahənin bir xüsusiyyəti var. Yaxşı, 6 il oxuduqdan sonra niyə yenidən bir imtahana girərək 4-5 il yüksək ixtisaslaşma, rezidenturada davam edir? Sadəcə kitabdan yox, kadavralardan istifadə olunur, insan üzərində yüzlərlə müdaxilələr üçün təcrübələrdən keçirlər. Yəni yüksək xərc tələb edən belə bir sənətə sahib olan insana daha sonra əlbəttə ki, verilən maaş ona verilən qiymətdir. O da özünə qoyulan qiymət nədirsə, onun qarşılığını verməlidir. Mən fəlsəfi olaraq düşünürəm



**"Biz səhiyyə və tibbə doğru qiymət verə bilməmişik"**

ki, bu günə qədər biz səhiyyəyə və tibbə doğru qiymət verə bilməmişik. Söhbət tək Azərbaycandan getmir, postsovet məkanından gedir.

***- Amma Azərbaycan vətəndaşı Gürcüstana müayinə və müalicəyə getdiyi halda, Gürcüstandan Azərbaycana gələn yoxdur. Demək, vəziyyət eyni deyil...***

- Mən bir həkim kimi deyirəm ki, 10 il əvvəllə müqayisədə bu gün böyük bir fərq var, insanların tibbə inamının xeyli artdığını görürük. Gürcüstan vətəndaşının buraya gəlməməsinin səbəbi o deyil ki, orada yaxşı tibbi xidmət var. Sadəcə, tibbi xidməti öz ölkəsində tibbi sığorta sayəsində ala bilir. Onun kənara gedib ödəmə etməsinə gərək yoxdur. Yaxud iranlının Azərbaycana gəlməsinə ehtiyac qalmır. Çünki onsuz da öz ölkəsində pulsuz müalicə oluna bilir.

***- Azərbaycan büdcəsi təkcə xəstələrin xaricə üz tutması nəticəsində itirmir. Həm də həkimlər xaricdə işləməyə üstünlük verir. Statistika nə deyir?***

- Avropada və Türkiyədə Azərbaycandan çoxlu işləyən həkimlər var. Xüsusilə də müstəqillik illərində Türkiyədə təhsil alan həkimlərin bəlli bir hissəsi geri qayıtmadı. Mən yaxın keçmişdə böyük bir tədbirdə iştirak etdim, ürək-damar cərrahiyyəsi sahəsində 20-yə yaxın ürək cərrahının Azərbaycana qayıtmadığını, orada qalıb işlədiyini gördüm. Amma söhbət təkcə bu sahədən getmir.

***- Xarici ölkələri bizim həkimlər üçün cəlbedici edən əsas səbəb nədir?***

- Türkiyədə terapevt təhsilini bitirdikdən sonra gedib dövlət xəstəxanasında işlədiyi zaman dövlətdən aldığı rəsmi maaşı - digər imkanlardan danışmıram - 4-5 min dollardan başlanır. Mən özəl xəstəxanalarda işləyən azərbaycanlılardan danışmıram.

***- Bəs, təhsilini başa vurub geri qayıdanlar burada nə qədər maaş alır?***

- Rəsmi olaraq dövlət xəstəxanalarındakı maaşlar hər kəsə bəllidir.

***- 160-170 AZN?***

- Bəli. Bəzi xəstəxanalarda hansısa fərqlər olur. İcbari tibbi sığorta 2017-də başlayacaq, amma bu sahədə ciddi bir fərq ortaya qoymaq mümkün deyil. Sadəcə, bir neçə xəstəxana var ki, dövlət xəstəxanası ola-ola həm də özünümaliyyələşdirmə sistemində çalışır və rəsmi bir şəkildə vergi ödəyicisidir, o xəstəxanalar həkimlərə və orta tibb personalına əlavə qazandığı dəyərin müqabilində bəlli bir faizlərlə rəsmi maaş verirlər. Amma ümumilikdə ölkə səhiyyəsinə baxdıqda, əlbəttə, böyük bir fərq var. Bəlkə də bundan çox şikayət edən yoxdur. Çünki həqiqətən də Azərbaycanda yaxşı həkimi Semaşkonun bir əsr əvvəl dediyi kimi, xalq dolandırır. Amma əslində həkim o şəkildə işləmək istəmir. Həkim sivil dünyada olduğu qaydada işləmək istəyir. İcbari tibbi sığortanı başlatdığımız zaman - bu, eqoizm kimi qəbul olunmasın - bəlkə də işin gözəl nəticəsini almaq istəyiriksə, birinci həkimlərin sığortalanmasına nail olmalıyıq. Gecə-gündüz tibbi xidmətlə məşğul olan insan yaşlandığı zaman özünün müalicəsi üçün tibbi sığortaya malik olmalıdır. Ən azı, bu testi onların üzərində həyata keçirə bilərik ki, özünüzə hansı xidmətin göstərilməsini istəyirsinizsə, gələcəkdə bu, xalqa da tətbiq olunsun. Yəni icbari tibbi sığorta həkimlərin üzərində başlana bilərdi. Elə təsəvvür edin ki, müəllim özünə, öz balasına təhsil verə bilmir. İcbari tibbi sığorta ilə əlaqədar olan problem sadəcə hansısa sosial-iqtisadi problemli insanların deyil, hər kəsin problemidir. Amma düşünürəm ki, başlanğıc işin 50 faizidir. Hər halda bunu 2017-də başlayacağıq.

Mən çox ümid edirəm ki, dövlətin ən azından qoymuş olduğu bu iradə sayəsində icbari tibbi sığorta sistemi gözəl bir nümunəyə çevriləcək və bu nümunə ölkənin hər yerinə yayılacaq. Amma bu işləri sadəcə hansısa bir ödəmənin alınıb-verilməsi kimi dəyərləndirmək doğru deyil. Bunun üçün birmənalı olaraq doğru taktikaların seçilməsi, gələcəkdə hansı xəstəlikləri əhatə eləməsi, kadr siyasətinin doğru aparılması, bunun sadəcə sözdə qalmayıb, əməli işdə reallaşması gərəkdir. Tibbi sığortadan yararlanma işinin iki tərəfi var. Bu, iki ayağı olan varlıq kimidir. Ayağın biri tibbi sığortadır, digəri sığorta tibbidir. Tibbi sığorta ödəməni edən maliyyə sistemidir, təşkilatçılıq işlərini görür. Sığorta tibbində isə söhbət sığortaya uyğunlaşmış səhiyyə xidmətini verən xəstəxanalardan, səhiyyə sistemindən gedir. Bu iki sistem birlikdə doğru addımlar ata bilməsə, o varlıq yerə yıxılar. Biri doğru işləməsə, digər işləsə, o, axsaq insana bənzəyər. Yəni tibbi sığorta ilə sığorta tibbinin eyni ahəng altında kardinal şəkildə işləməsinə ehtiyac var.

❑ Elşad PAŞASOY
FOTO: "YM"



# Safari park haqda düşüncələrim

Zamin HACI
zaminhaci@gmail.com

**Donald Tramp xaricdəki bəzi biznes qurumlarından adını qopartmaq qərarına gəlib, bunlar içində Bakıdakı nakam hotel də var. Bir neçə il nəqliyyat naziri Ziya Məmmədovun ailəsi bu "Tramp Tauer" binasının adıyla daxili bazarda alver eləyə bildi. Nəhayət, buna son qoyulur, yaxşı da olur.**

Ümumiyyətlə, son illər neft pulu tükəndikcə bir çox dünya hotelçilik şirkətləri batan gəmini tərk edən siçovul misalı, Azərbaycandan çıxıb gedirlər. Misal üçün, "Jumeyrah" Bilgəhdən adını pozdurdu, "Kempinski" Badamdardan. Şamaxını isə "Riksos" tərk elədi. Kabab iyinə gəlmişdilər, gördülər eşşək dağlanır. Axı doğrudan da sutkası 300-400 dollarlıq nömrələrdə qalıb pəncərədən mazutlu Xəzəri, yaxud, Qurd qapısı qəbristanlığını seyr etməyin heç bir anlamı yox idi. Bakı və Azərbaycan nə beynəlxalq bazar, nə mədəni-tarixi ekspozisiya, nə də təbiət etibariylə turizm üçün böyük perspektivlər vəd eləmirdi. Əsas da azadlıq yoxdursa, orda turizm ola bilməz. İnsan azadlıqları turizm üçün birinci şərtdir.

Əlbəttə, Afrikada-filanda azadlıq olmayan müəyyən yerlərdə safariyə çıxanlar olur, ancaq bunlar dövlət, xalq üçün qazanc gətirəcək turizm sektoru deyil. Misal üçün, mənim bir dostum Çad dövlətində gəzinti zamanı 2 litrlik su ilə ov nizəsini dəyişib həmin nizəni mənə hədiyyə gətirmişdi. İndi görün, orda camaat hansı kökdə yaşayır. Bunu həm də təzə Strateji Yol Xəritəsində Şamaxıda Safari Park salınacağı xəbərini oxuyanda xatırladım. Şamaxıda ərazi qalıb ki, onu safari park edəsən? Hamısı iribuynuzlu məmurların villa və sarayları ilə zəbt edilib. Görəsən Şamaxıya gələcək xəyali turistlər hansı heyvanları yaxından müşahidə edib lazım gəlsə ovlayacaqdır?

Bundansa müəyyən nazirlik və idarələri turizm cığırlarına daxil etmək olardı. Misal üçün, keçmiş MTN-də baş verənlər bəlkə Afrika savannalarında yırtıcı heyvanlar arasında baş vermir. Elə MTN-i parçalayıb yerində yaratdıqları Dövlət Təhlükəsizlik Xidmətinin rəisi Mədət Quliyevin bir açıqlamasını diqqətlə oxuyanda durumun necə acınacaqlı olması görünür. Mədət müəllim təzəlikcə dedi ki, son bir ildə DTX-dən 500 nəfər keçmiş "MTN-çi" qovulub. Yəni, bunun yarısından 1 ildə çıxdaş edilən kadr bu qədərdirsə, gör tamından neçə nəfər çıxarılıb və ümumən orda kriminogen durum hansı gündə olmuşdur.

Söz düşmüşkən, Mədət müəllim dekabrın əsas tuthatut temalarından biri olan "reket jurnalistlərin həbsi" söhbətinə də maraqlı izahat vermişdi. Deyib, onlar müəyyən vəzifəli adamların və övladlarının qeyri-qanuni videoçəkilişini aparıb əvəzində pul tələb edirmiş.

Bəs, görəsən, DTX niyə bu vəzifəli adamların adlarını açıqlamır? Axı xalq öz qəhrəmanlarını tanımalıdır, biz bilməliyik video-şantaja mətanətlə sinə gərən o vəzifəli şəxslər kimlərdir. O cümlədən, vəzifəli şəxsin qanuni video çəkilişi anlayışına da açıqlama gətirilməlidir, çünki jurnalist - istər reketi olsun, istər həqiqisi - vəzifəli şəxsi hansısa yas mərasiminin il dönümündə, ildə cəmi bir-iki dəfə qəbristanlığın qapısında beş saniyə görüb videoya çəkə bilirsə, əvəzində nə etməlidir?

Təbii ki, burda bir rəqabət mühiti də var, çünki indiyə qədər insanların qanunsuz izlənməsi, videoya alınması ancaq xüsusi xidmətlərin səlahiyyətində idi, dəfələrlə bu çirkin silahdan müxalifətə, jurnalistlərə qarşı istifadə edilib. İndi belə çıxır bazara girən varmış, ya da silah iqtidarın əlində açılıbmış - obrazlı yazsaq.

Mətbuat Şurasına da bir selbə tolazlayaq, ta mövzu özü gəldi çıxdı, necə deyərlər, yaxşı adam öz söhbətinin üstünə çıxır, Amaşov isə yaxşı adamdır, hələ indiyə qədər heç bir jurnalisti boğmayıb. MŞ adətən reketlərin qara siyahısı adlı bir cədvəl hazırlayıb icra hakimlərinə-zad göndərirdi ki, filan qəzetdən gəlib pul istəsələr, verməyin, bizim adam gələndə verərsiniz. Maraqlıdır ki, indi DTX-nin reket adıyla damladığı o qaqaşlar MŞ-nin qara siyahısında yox idi. Yəqin MŞ-nin də videosunu çəkiblərmiş. Əks halda dünya söz azadlığı zirvəsində başda duran MŞ kimi quruma şər ata bilmərik.

Bu arada, Əflatun Amaşova dərin təşəkkür edirik, çünki bizim yazıdan və iraddan sonra Saatlıdan deputat qoyulmağı yadına düşmüş, rayona getmişdir. Axarıncı olsun.

Saatlıda safari park yaratmaq imkanları da düşünülməlidir. Kanalların qırağında yaxşı qurbağalar olur.

# Sərkisyan rejiminin təbliğat maşını fiaskoda

**Qarabağ münaqişəsi işğalçı ölkə rəhbərliyinin təxribatçı mövqeyi sayəsində növbəti və daha təhlükəli fazasına adlayıb. Artıq erməni xalqına da aydındır ki, bu ölkədə hakimiyyətə "neytral", hərbi cinayətlərə bulaşmayan yerli siyasi qüvvə gəlməyincə problemin həllində real dönüş müşkül olacaq. O da aydındır ki, illərdir erməni xalqını hakimiyyət maraqları naminə qorxu altında saxlayan kriminal Qarabağ klanı, belə görünür, güc dilini daha yaxşı anlayır.**




## İşğalçıya qarşı hibrid savaşı - Bakı yeni cəbhə açır...

### Düşmənə ikinci qəfil aprel zərbəsi - daşnak-separatçı ünsürlər isterikada; təbliğat savaşında təcavüzkara daha bir zərbə Belarusdan gələ bilər - Qarabağa qanunsuz səfərlər edib separatçı rejimi təbliğ edən blogger Lapşin ölkəmizə ekstradisiya edilməklə...

Lakin qaynar müharibə hələlik dondurulsa da, virtual müharibə davam edir - informasiya alanında, təbliğat meydanlarında. Yeri gəlmişkən, bu arada Ermənistanın hakim dairələrində və bəzi siyasi-ekspert çevrələrində Azərbaycana qarşı növbəti isterika başlayıb. Səbəb də ölkəmizin son zamanlar Sərkisyan rejiminə qarşı təbliğat savaşında ciddi uğur qazanması, onun Qarabağ siyasətinə tutarlı zərbə vurmasıdır. Söhbət işğalçıya qarşı hibrid müharibəsinin elementlərindən istifadədən gedir.

***

Məlumdur ki, az öncə üç erməni ictimai xadimi və fəalı - Vaha Avetyan, Vahan Martirosyan və Süzan Caginyan Bakıda Qarabağa dair konfransa qatılıb, Xocalı abidəsini ziyarət ediblər. Daha sonra onların da imza atdığı Azərbaycan-Ermənistan Sülh Platforması qəbul olunub. Platforma konfliktin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində, iki millətin barışı əsasında həllini nəzərdə tutur və tamamilə beynəlxalq hüquqa söykənir. Eyni zamanda, erməni xalqının yeganə xilas formulu sayıla bilər.

Az sonra Süzan Caginyan Bakıda haqqin.az saytında işə qəbul edilib. Bunun ardınca Dağlıq Qarabağdakı gənc yazıçı və ictimai fəal Lusine Nersesyan, Almaniyada yaşayan miqrant Armen Virabyan, son olaraq isə Ukraynadan başqa bir erməni, sayca 6-cı erməni fəalı - Aram Karapetyan Bakı deklarasiyasına imza atıblar. Karapetyan Qarabağ müharibəsinin fəsadlarının aradan qaldırılmasına Sərkisyan rejiminin mane olduğunu da bildirib.

Bütün bunlar, daha doğrusu, öz xalqını daim yalanlarla yemləyən Ermənistandakı hakim klan əleyhinə start götürmüş yeni tendensiya, gözlənildiyi kimi, Sərkisyan iqtidarını və onun tərəfdarlarını bərk narahat edib. Ədalətin müdafiəsinə qalxan erməni fəallara qarşı təhdidlər və hədələr baş qaldırıb. Luzine Nersesyan Xankəndində həbs edilib - hərçənd rəsmi İrəvan bunu danır. Lakin Avropa Birliyinin Bakı ofisinin rəhbəri Malina Mardın bu həbsi pisləməsi və Sülh Platformasına dəstək ifadə eləməsi İrəvan hökuməti üçün başqa bir xoşagəlməz sürpriz olub və əks-effekt yaradıb.

***

Erməni politoloq Qaqik Qambaryanın bu xüsusda 1 inş.am saytına söylədiyi fikirlər öz-özlüyündə hər şeyi qabarıq şəkildə büruzə verir, hakim elitadakı məyus ovqatı əyani büruzə verir. Əslində isə bu başabəla politoloq mənsub olduğu dairənin öz xalqına real münasibətini oraya qoyur (Ümid edək ki, onlar çoxluqda deyil).

Qambaryan öncə Platformaya təkcə erməni toplumunda deyil, Rusiyada, başqa ölkələrdə də pozitiv reaksiya olmasından narahatlığını bildirərək deyib: "Bizim üçün sadəcə, qəribədir ki, bu platforma haqda "Kremlin mikrofonu" Dmitri Kiselyev, Kremlə yaxın politoloq Sergey Markov fikir bildirir. Moldova İctimai Palatasının başçısı, "bədnam" (dırnaqlar bizimdir -red.) Qriqoriu Aureliya isə artıq dünəndən mövqe sərgiləyir".

Həqiqi mənada öz xalqının rifahını və inkişafını istəyən 6 ermənini "avantürist", "psixi xəstə", "hakimiyyətdən inciyənlər", "pula satılanlar" adlanrdıran, əslində isə avantürist və psixi xəstənin ən yekəsi olan Qambaryan ardınca onların fiziki məhvinə çağırış edir: "Bizim üçün vacibdir ki, buna diplomatlar deyil, Milli Təhlükəsizlik Xidməti reaksiya versin. MTX nə üçün yaradılıb ki? Bu strukturun fəaliyyətinin 90%-i belə satqınları aşkarlayıb zərərsizləşdirməkdir. Demirəm ki, onları fiziki məhv eləmək lazımdır - iş bu həddə çatarsa, onu da etməliyik... Çünki bu, artıq hibrid müharibəsidir və biz buna hazır deyilik".

Qeyd edək ki, erməni fəalları ilə bağlı bənzər açıqlama və hədələrlə separatçı rejimin "mətbuat katibi" David Babayan da çıxış edib. Bu da təbiidir, ona görə ki, separatçı-daşnak ünsürlər sadə və vicdanlı ermənilərin Platformaya bu qədər maraq göstərməsindən əməlli-başlı təlaş keçirirlər. Çünki yaxşı bilirlər ki, Sərkisyan rejiminin yalanlarından bezən ermənilərin sayı qat-qat çoxdur.

Ermənilər doğrudan da özgə torpaqlarında xoşbəxt ola bilməyəcəklərini artıq kütləvi şəkildə anlamağa və bu torpaqları öz sahibinə qaytarmağın vaxtı çatdığını dərk etməyə başlayıblar. Təsadüfi deyil ki, Platformaya qoşulan ermənilər təkcə Dağlıq Qarabağı təmsil eləmirlər. Bu, həm də onun sübutudur ki, Qarabağdakı erməni əhali - Azərbaycan vətəndaşları daim xof altında yaşamaqdan bezib.

***

Konfliktin ədalətli həllinə dirəniş göstərən erməni-daşnak ünsürlərin qanını qaraldan daha bir hadisə Belarusla bağlı baş verməkdədir. Məlum olduğu kimi, Dağlıq Qarabağa qanunsuz səfərlər etdiyinə və separatçı rejimi təbliğ etdiyinə görə barəsində cinayət işi qaldırılan, Azərbaycan hüquq-mühafizə orqanlarının sorğusu əsasında Belarusda həbs olunan bloqqer Aleksandr Lapşinin barəsində bu günlərdə 2 aylıq həbs qətimkan tədbiri seçilib. Onun Azərbaycana ekstradisiyası gözlənilir. Bu, baş verərsə, separatçıların təbliğatçısı 3 ildən 5 ilə qədər həbs cəzası ala bilər.

Bu üzdən məsələ erməni tərəfdə, daha dəqiqi, onun rəhbərliyində ciddi təlaş yaradıb. Anlaşılandır. Lapşinin həbsi ilk presedent olmaqla başqalarını da Qarabağa qanunsuz səfərlərdən çəkindirəcək. Söz düşmüşkən, işğal altındakı ərazilərə qanunsuz səfərlərə görə cinayət işinin qaldırılması praktikasından Gürcüstan çoxdandır istifadə edir. Azərbaycan isə beləlrini "qara siyahı"ya salsa da onları İnterpol xətti ilə beynəlxalq axtarışa vermək praktikasından nadir hallarda istifadə edib.

Lapşinin ekstradisiyası baş tutarsa (Belarus-Azərbaycan münasibətlərinin indiki səviyyəsi buna tam imkan verir. Minsk Qarabağ məsələsində də həmişə, son olaraq isə aprel döyüşləri zamanı Azərbaycanın haqlı mövqeyini dəstəkləyib və buna görə İrəvanın qəzəbinə gəlib, eyni zamanda Azərbaycan silah satan ölkələrdən biridir), o zaman erməni təbliğat maşınına və separatizminə növbəti zərbənin vurulduğunu deyə biləcəyik.

Üstəlik, vurğulandığı kimi, bu, ilk belə presedent olduğundan, onun profilaktik təsiri və təbliğati əhəmiyyəti böyük olacaq. Bundan sonra işğal altındakı Azərbaycan torpaqlarına qanunsuz getmək istəyənlər bunu etməzdən qabaq iki dəfə düşünməli olacaqlar.

O ki qaldı separatçıların "mətbuat katibi" David Babayanın sayıqlamasına ki, guya bununla Belarusun beynəlxalq imici korlanacaq, tam əksinə - yaxşılaşacaq. İmici zədələnən olacaqsa da, bu - yalnız separatçıların qanunsuz rejimi olacaq. Çünki beynəlxalq qaydalar əsasında hərəkət edən, bu qaydalara sayğı göstərən bir ölkənin beynəlxalq imici zədələnə bilməz. Bunu beynəlxalq hüquqa görə "bic törəmə" sayılan bir separatçı qurumun "sözçüsü" hardan bilsin ki?

Beləcə, faktiki surətdə Azərbaycan işğalçıya ikinci qəfil aprel zərbəsi vurub. Düşmən apreldəki kimi, indi də hibrid müharibəsinin şokundadır və nə edəcəyini bilmir. Bu, eyni zamanda Ermənistana qarşı yeni cəbhənin açılması da sayıla bilər. XXI əsrdə, bəşəriyyətin qaynar müharibələrə pis baxdığı zamanda bu, az önəm kəsb eləmir və ölkəmizin Qarabağ məsələsində mövqeyini gücləndirir.

❑ **Analitik xidmət**

YENİ MÜSAVAT
N 282 (6603) 19 dekabr 2016

# Yaqub Eyyubovun Rusiya sevgisinin pərdəarxası

## Elçin Mirzəbəyli: “Onun və digər şəxslərin bu cür fikirlərində...”

**Son illərdə Azərbaycan hökumət üzvlərinin Rusiyanın şəninə təriflər yağdırması az qala, adi hal alıb. Bu da ictimaiyyət daxilində bir sıra müzakirələrə səbəb olur. Son olaraq, baş nazirin 1-ci müavini, Rusiya-Azərbaycan iqtisadi-ticarət məsələləri üzrə hökumətlərarası komissiyasının Azərbaycan tərəfdən həmsədri Yaqub Eyyubov hökumətlərarası komissiyanın Bakıda keçirilən 16-cı iclasında şimal qonşumuzu tərifləyib.**



Nazir müavini Rusiyanı regionda təhlükəsizliyin qarantı adlandırıb: “Rusiya çalışır ki, hər yerdə sülh olsun və başqa ölkələrin daxili işlərinə müdaxilə halları baş verməsin. Biz Rusiya ilə münasibətlərə böyük önəm veririk. Ticarət dövriyyəsini artırmaq üçün stimul var. 2014-cü illə müqayisədə ticarət dövriyyəsi kəskin azalıb. Bu isə böhranla bağlıdır, hər yerdə ciddi itkilər müşahidə olunur. Bizdə də devalvasiya baş verib”.

Xatırladaq ki, Y.Eyyubov Rusiyadan “Dostluq” ordeni almış şəxsdir. Ekspertlərə görə, bu cür fikirlərin yüksək rütbəli dövlət məmurları tərəfindən tez-tez səslənməsi Azərbaycan hökumətinin balanslı siyasət yürütməsinin nəticəsidir.

Politoloq Elçin Mirzəbəyli bildirdi ki, Azərbaycan üçün emosional əhval-ruhiyyə keçərli deyil: “Şübhəsiz ki, həm Rusiya, həm də Azərbaycan tərəfi ikitərəfli görüşlərdə qarşılıqlı olaraq bir-birinin ünvanına normal fikirlər səsləndirirlər. Bunun nə qədər həqiqətə uyğun olub-olunmamasını, eləcə də, səmimi olub-olmamasını müəyyənləşdirmək ictimaiyyətin öhdəsinə qalır. Amma Rusiya böyük dövlətdir, Azərbaycanla qonşudur. Nəinki region dövlətləri, bir sıra qlobal güclər də bəzi məsələlərdə Rusiya ilə hesablaşırlar. Bu aspektdən mən Yaqub Eyyubov və digər şəxslərin bu cür fikirlərində ciddi bir problem görmürəm. Hesab edirəm ki, dövlət rəsmiləri Rusiya ilə münasibətləri yoluna qoymaq istəyirlərsə, iqtisadi əlaqələrin genişlənməsinə çalışırlarsa, burada ciddi problem olmamalıdır. Rusiyanın Ermənistanla bağlı mövqeyi reallıqdır və yaranmış bir situasiyadır. Problemlərin aradan qaldırılması üçün yəqin Rusiya ilə bu istiqamətdə danışıqlar aparılır. Ekspertlər və siyasi partiyaların rəyləri ilə dövlət rəsmilərinin fikirləri arasında şübhəsiz ki fərq olmalıdır. Çünki dövlətlərarası əlaqələrdə sərgilənən davranışlar münasibətlərə xələl gətirməməlidir. Məsələni bu aspektdən dəyərləndirib, bundan hər hansı bir narahatçılıq keçirmirəm. Azərbaycan bütün qonşuları, o cümlədən, Qərb dövlətləri ilə normal münasibətlər qurmağa çalışır. Bu münasibətlər yönündə müxtəlif addımların atıldığının şahidi oluruq. Ötən həftə müxtəlif ölkələrin yüksək rütbəli dövlət rəsmilərinin Bakı səfərini izlədik. Göründüyü kimi, sfera kifayət qədər genişdir. Bu əlaqələr nə qədər geniş olarsa, bir o qədər ölkəmizin mənafeyinə xeyirdir. Oxşar fikirlər, diqqət yetirsəniz, Rusiya tərəfdən də ölkəmizin ünvanına səslənir. Müxtəlif vaxtlarda bunun şahidi olmuşuq. Praktikada bu necə yerinə yetirilir, bu başqa mövzunun söhbətidir. Tələsmədən proseslərin davamını izləmək lazımdır”.

Politoloq bu cür fikirlərin arxasında qonşu dövlətimizə mesajların olduğunu da istisna etmir: “Hər hansı bir fikirdə müəyyən mesaj ola bilər. Azərbaycan Rusiya ilə münasibətlərin normal olmasını arzulayır. Bizim əsas məqsədimiz Dağlıq Qarabağ problemində bu ölkənin ədalətli mövqe nümayiş etdirməsidir. Azərbaycan beynəlxalq hüquq normaları ilə ədalətin bərqərar olmasını arzulayır. Daha geniş aspektdən yanaşanda bu Rusiyanın da mənafeyinə uyğundur. Ermənistanın Rusiyaya verə biləcəklərini, Azərbaycanın bütövlükdə regionda təhlükəsizlik məsələsində oynaya biləcəyi rolu tərəzinin gözünə qoysaq, şübhəsiz ki, Azərbaycan qat-qat üstə gəlir. Yaqub Eyyubov deyir ki, Rusiya regionda təhlükəsizliyin qarantıdır. Prinsip etibarı ilə məsələyə müxtəlif aspektlərdən yanaşmaq olar. Əgər sabitliyin pozulması məsələlərində Rusiya konkret mövqe tutsa, regionda bir münaqişənin alovlanmasını arzulasa, bu istiqamətdə müxtəlif addımlar atsa, o zaman bəzi problemlər yarana bilər. Rusiyanın burada sabitlik mövqeyini sərgiləməsi onu təhlükəsizliyin qarantı olması anlamına gələ bilər. Amma bu uzunmüddətli və davamlı təhlükəsizlik anlamına gəlmir. Davamlı təhlükəsizlik üçün ilk növbədə, münaqişələrin həllinə ehtiyac var. Düşünürəm ki, bu mesajın içərisində bu amili axtarmaq lazımdır. Yəni Rusiya regionda davamlı sülhü təmin edə bilər. Əgər münaqişəni ədalətli həll etsə, Ermənistanın işğalçılıq siyasətinə son qoyulacaq”.

❑ **Cavanşir ABBASLI**

# Netanyahunun Bakı səfəri Ruhaninin İrəvan ziyarətini tezləşdirə bilər?

## Qabil Hüseynli: “İran prezidentinin Ermənistan səfəri baş tutacaq”

**Ötən həftə İsrailin baş naziri Benjamin Netanyahunun Bakı səfəri reallaşdı. 7 saatlıq səfər qonşu İranda ciddi etirazla qarşılandı. Rəsmi Tehran iddia etdi ki, son illərdə İran və Azərbaycan arasında əlaqələrin yüksək səviyyəyə çatması İsraili narahat etdiyindən, bu əlaqələrə zərbə vurmaq üçün Netanyahu Bakı səfərini reallaşdırıb.**



İsrailin baş nazirinin ölkəmizə səfərinin İran prezidenti Həsən Ruhaninin Ermənistan səfərini tezləşdirəcəyi deyilir. Aylar öncədən İran rəhbərinin düşmən ölkəyə ilin sonunadək səfər edəcəyi barədə xəbərlər yayılsa da, görünən odur ki, bu günə qədər bu səfər reallaşmayıb.

Politoloq Qabil Hüseynli Netanyahunun Bakı səfərinin Ruhaninin Ermənistana səfərini tezləşdirəcəyi ilə bağlı deyilənlərlə razı deyil: “Əvvəla onu bildirim ki, İsrailin baş nazirinin ölkəmizə səfərindən İranın qıcıqlanmağının heç bir əsası yoxdur. Azərbaycan suveren dövlətdir. Öz xarici siyasətini müstəqil şəkildə qurur. Bu zaman öz dövlət maraqlarını qoruyur, problemlərini, xüsusilə Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində siyasətini qurur. Bu səfər heç bir dövlətin əleyhinə deyil və ola da bilməz. Bizi İranla tarixi ənənələr, bir sıra əlaqələr birləşdirir. Bu baxımdan Netanyahunun Bakı səfərinin İranda etiraz doğurmasını əsassız sayıram. İranın Ermənistanla əlaqələri ən kritik dönəmlərdə belə səngiməyib. Azərbaycan Ermənistana blokada tətbiq etdikdən sonra bizi yalnız Türkiyə dəstəklədi, sərhədlərini bağladı, digər məhdudlaşdırıcı addımlar atdı, hətta Gürcüstanın düşmən ölkə ilə əlaqələrini minimuma endirdi. Amma İranın Ermənistanla iqtisadi əlaqələrini daha da gücləndirməsi bir növ təcavüzkar ölkə üçün nəfəslik rolunu oynadı. Bu nəfəsliyin hesabına Ermənistan tam boğulmaqdan xilas oldu. İran əgər dostluğa sədaqətli idisə, müsəlman ölkəsi olan və torpaqları işğal olunan Azərbaycanı müdafiə etməli idi. Amma bunu nəinki etdi, hətta daha çox Ermənistanın tərəfində durdu. Belə demək mümkündür ki, İran Ermənistanın tərəfində durmaqla bir növ onun qələbə çalmasına yardım etmiş oldu. İndiyə qədər İran Azərbaycanla münasibətlərdə sona qədər səmimi olmayıb. Ölkəmizin inkişafından narahatlıq hissi keçirib. İranla Ermənistan əlaqələri yüksək səviyyədədir və bu şəkildə də davam etməkdədir. Güman edirəm ki, yaxın vaxtlarda Ruhaninin Ermənistana səfəri reallaşacaq. Onsuzda əvvəlcədən bu səfər nəzərdə tutulurdu”.

❑ **Cavanşir ABBASLI**

# Hökumət üçün xilas yolu



**Elşad PAŞASOY**
epashasoy@yahoo.com

**Ötən həftə “ASAN Viza” portalının təqdimat mərasimi ilə bağlı xəbər diqqətimi çəkdi. Deyilirdi ki, portalın yaradılmasında məqsəd əcnəbilər və vətəndaşlığı olmayan şəxslər üçün viza verilməsi prosedurunun sadələşdirilməsi, müasir informasiya texnologiyalarının tətbiqi ilə operativlik və şəffaflığın təmin edilməsidir.**

Yeni birdəfəlik elektron viza almaq üçün portala müraciət edən şəxs ödəniş etdikdən sonra onun vizası 3 gün ərzində elektron poçt ünvanına göndəriləcək. Şübhəsiz ki, bu yenilik xaricilərin Azərbaycana marağının artmasına səbəb olacaq.

Ancaq çox yaxşı olar ki, ASAN-ın atdığı addımlar digər rəsmi qurumlar tərəfindən də dəstəklənsin. Deyək ki, turist sevincək vizanı alıb Bakıya gəldi. Ancaq ölkəmizdə bank sektorunun iflic hala düşməsi səbəbindən valyutadəyişmə ilə bağlı elə vəziyyətlə üzləşə bilər ki, gəldiyinə peşman olar...

Valyutadəyişmə məntəqələri qapadılıb, banklar ağlaşma qurub, “Qara bazar”la mübarizə gedir. Bəs, Bakıya gələn əcnəbi pulunu harda dəyişəcək? Təzədən hava limanına qayıtmayacaq ki? Azərbaycan vətəndaşları üçün bu vəziyyət “keçərlidir”, necə deyərlər, öyrəşmişik. Ancaq əgər biz turizmi inkişaf etdirmək istəyiriksə, bu sahədə bütün kəm-kəsirləri aradan qaldırmalıyıq. Dünyanın ən gəlirli sahələrindən birinin inkişafına nail olmalıyıq ki, vətəndaşımız da qazansın, dövlətimiz də. Yüz milyonları xərcləyib Şahdağ Qış Kompleksini qurmuşuqsa, qarın bol vaxtında oraları turistsiz qoymamalıyıq.

Gürcü larisinin ucuz vaxtını xatırlayırsınız yəqin. Azərbaycan vətəndaşları bir ucdan qonşu ölkəyə axışırdı. Vaxtilə əcnəbilər dolları Bakıya gətirib 0,78 qəpiyə dəyişməyi rəva bilmirdilər. Ancaq artıq manat dollarla müqayisədə iki dəfə ucuzlaşıb. Məntiqlə Azərbaycan xaricilər üçün cəlbedici olmalıdır. Gəlmirlərsə, deməli, günah bizdədir. Nələrsə yerində deyil. Təbii gözəlliklər, tarixi abidələr, müasir və köhnə Bakı, dəniz, fərqli iqlim və s. xaricilərin marağını heç şübhəsiz cəlb etməlidir.

Rəsmi məlumata görə, bu ilin 9 ayında Azərbaycana gələn turistlərin sayı ötən illə müqayisədə artıb, 1.719.015 nəfərə çatıb. Amma sevinməyə tələsməyək. Təkcə 2016-cı ilin ilk beş ayında Gürcüstana 2 milyondan çox turist gəlib. Qalan 7 ayı da üzərinə gəlsək, böyük rəqəm alınar. Üstəlik, Gürcüstana ən çox gedənlər elə azərbaycanlılar olub - 570,825 nəfər.

İndi əksini düşünək, il ərzində neçə min gürcü Azərbaycana gəlib? Azərbaycan vətəndaşları hətta gömrük-buraxılış məntəqələrində saatlarla gözləməyi, çətinliklərə dözməyi də özlərinə rəva bilərək qonşu ölkəni seçirlər. Nəticədə milyonlarla vəsait Azərbaycanın deyil, qonşu ölkənin istirahət guşələrində xərclənir.

Azərbaycan hökumətinin tam olaraq ASAN-laşdırılmasına ehtiyac var. Gerçəklik budur ki, ASAN Xidmət özünü tam doğrultdu. Cəmi 4 illik fəaliyyəti dövründə quruma 13 milyondan çox vətəndaş müraciət edib. Rəsmi açıqlamaya görə, Dövlət Agentliyindən məmnunluq səviyyəsi 98-100 faiz təşkil edir. İllərlə hətta “JEK” müdirinin qəbuluna düşməyə çətinlik çəkən vətəndaş 15 dəqiqəyə ASAN-dan müraciətinə müsbət cavab alırsa, təbii ki, məmnun qalmalıdır.

Ölkədə idarəçilikdə ASAN-laşma metodu tətbiq olunarsa, heç şübhəsiz Azərbaycana turistlər də axışar, investisiya qoymaq istəyən əcnəbi iş adamları da. Bürokratiyadan, korrupsiya və rüşvətdən uzaq olan bir mühiti kim arzulamaz ki?

Bəli, biz qısa müddətdə brend məhsullar hazırlayıb dünya bazarına çıxara bilməyəcəyik. Böhran isə qapını kəsdirib. Turizm isə hazırda Azərbaycanın ən çox gəlir götürə biləcəyi qeyri-neft sektorudur.

Gələn il Azərbaycanda İslam Həmrəyliyi Oyunları və Formula-1 yarışları keçiriləcək. Hər iki oyunu canlı izləməkdən ötrü dünyanın onlarla ölkəsindən turist cəlb etmək imkanımız var.

Hökumət işığın və qazın qiymətini artırmaqla əlavə 300 milyon gəlir götürəcəyini açıqladı. Bununla da xeyli insanın narazılığı ilə üzləşdi. Amma təkcə turizm sektorunda normal vəziyyət yaradılsa, hökumətin qazancı milyardlarla ölçülərdi, üstəlik, tamadadan, dayədən, xadimədən vergi tutmağa ehtiyac qalmazdı...

Hökumət çətin durumdadır, çıxış yolu arayır. Maliyyə naziri də, baş bankir də gələn ilin daha çətin olacağını deyirlər. Çox deyilir ki, bu hökumətin sürəti islahatlar aparmağa yetmir, yol xəritələrindəki qrafikə uyğun gəlmir. Onları bu çətinlikdən qurtara biləcək yol isə var. 13 milyon insanı məmnun edən yol...

# "İslam dünyası çarəsizlik sindromu yaşayır"

## Hasan Oktay: "Bu məsələdə bütün məsuliyyəti xarici qüvvələrin üzərinə yükləmək doğru deyil"


Hasan Oktay

**Suriyada baş verən olaylar, xüsusən də Hələbin hökumət qüvvələrinin nəzarətinə keçməsi bu şəhərdə müharibə faciələri ilə yanaşı, Yaxın Şərqdə yenidən məzhəbçi çağırışlara səbəb oldu. Xüsusən də Hələbin arazi olaraq yaxınlığında yerləşən Türkiyədə bu çağırışlar daha qabarıq görünməyə başladı.**

Hələbdə mühasirədə olan əhaliyə qarşı hücumları İrana bağlı, yəni şiələrin həyata keçirdiyi ilə bağlı propoqanda aparıldı. Kimlər tərəfindən başladıldığı dəqiq bilinməyən bu təbliğat kampaniyası ötən həftə Türkiyənin islamçı mediası və nüfuzlu şəxsləri tərəfindən davam etdirildi. Nəticədə şiəlik, ələviliyə qarşı çağırışlar oldu. Bir universitet müəllimi Türkiyədə şiə və ələvilərdən qisas alınacağını yazdıqdan sonra vəziyyətin daha təhlükəli olduğu göründü. Həmin universitet müəllimi işdən çıxarılsa da, bu, çağırışlara təsir etmədi.

Vəziyyətin bu həddə çatması hökumət rəsmilərini də narahat etməyə başladı. Türkiyə prezidentinin müşaviri Yalçın Topçu məzhəb nifrətinin yayılması təbliğatının planlı olduğunu, müsəlmanlar arasında nifrət yaymağa hesablandığını bildirib. İŞİD-in əsas hədəfinin Yaxın Şərqdə məzhəb savaşı törətmək olduğunu, bunu İraq, Suriya və Yəməndə bacardığını, indi isə Türkiyə və İran arasında məzhəb savaşı baş verməsinə çalışdığını deyib. Hələbdə olanları bir tələ kimi qiymətləndirən prezident müşaviri şəhərdə olanların məqsədli şəkildə məzhəb toqquşmasına çevrildiyini deyib. Bu səbəbdən də o, tədbirli və soyuqqanlı olmağa çağırıb.

Qeyd edək ki, Türkiyə prezidenti baş verənlərə açıq münasibət bildirməsə də, yayılan yazılı açıqlamada Türkiyə vətəndaşlarını birlik və bərabərliyə çağırıb. Vəziyyətin bu həddə çatması, Yaxın Şərqdə siyasi və hakimiyyət mübarizələrinin dini düşmənçiliyə yönəldilməsi Türkiyədə də ağıllı insanlarda narahatlıq doğurmağa başlayıb.

Ankarada yerləşən "Kafkassam" Strateji Araşdırmalar Mərkəzinin direktoru Hasan Oktay baş verənləri bir dönüm nöqtəsi olaraq qeyd edir. Ekspertin fikrincə, bu vəziyyət Yaxın Şərqi xarici müdaxilələr üçün rahat vəziyyətə gətirir: "Son günlərdə İslam dünyası çarəsizlik sindromu yaşayır. Şiə-sünni davası İslam dünyasının qarşısında bəlkə də yox olmanın dönüm nöqtəsidir. Bu məsələdə bütün məsuliyyəti xarici qüvvələrin üzərinə yükləmək tam olaraq doğru deyil, amma o da var ki, xarici qüvvələr bundan davamlı olaraq istifadə edir. İslam dünyası şiə-sünni məsələsini bir savaş səbəbi deyil, fəaliyyətdə bəsit bir fikir ayrılığı olaraq görmədiyi müddətdə bu məsələ hər zaman xarici müdaxilənin əlində vasitə olacaq. Xüsusən də türk müsəlmanlar arasında məzhəb məsələsi inanılası bir şey deyil".

H.Oktay deyir ki, bu bəladan qurtulmaq üçün ruhi təlimə ehtiyac var. İnsan psixologiyasının problem yaratmağa çox münasib olduğunu deyən ekspertin fikrincə, bu vəziyyətdə təhsilsiz insanlar yırtıcıya çevrilə bilər: "İslam mədəniyyəti tarixində sufi təlimləri insan psixologiyasını bu pis vəziyyətdən qurtarmaq üçün formalaşıb. Türk sufiliyi bunun olduqca uğurlu nümunələrini ortaya qoyub. Şiə-sünni davası bölücü deyil, mədəniyyət, ənənə zənginliyinə çevrilməsi üçün həm şiə, həm də sünni dünyası sufi təlimlərinə üstünlük verməli, sülh və dostluğu qabartmalıdır".

Ekspertə görə, əgər İslam dünyası bir mədəniyyət qurmağa iddia edirsə, o zaman məzhəb qarşıdurmalarını bir kənara qoymalıdır. "Bunun üçün mədəniyyət təməllərini yenidən gözdən keçirmək lazımdır" - deyə ekspert əlavə etdi.

H.Oktay deyir ki, hazırda həm sünnilik, həm də şiəlik xarici müdaxiləyə açıq hala gətirilib: "İngilislərin şiəlik və sünnilik məsələsi ilə bağlı fəaliyyətlərini görməzdən gələrək fitnə toxumları üzərindən savaşmaq İslam mədəniyyətinə son qoya bilər. Əgər belə olarsa, baş verəcək İran-Türkiyə savaşı İslam mədəniyyətini yox edə bilər. Bunun məsuliyyətini heç kim daşıya bilməz".

"Kafkassam" rəhbəri Türkiyədə son çağırışların ölkədə məzhəbi zəmində toqquşmalara gətirəcəyinə inanmasa da, Suriyada İran və Türkiyənin qarşı-qarşıya gəlməsinin bu savaşı körükləyə biləcəyini düşünür. Ölkə içində isə daha çox kürd-türk münaqişəsi təhlükəsinin olduğunu deyən ekspertə görə, bəlli güclər Türkiyədə bu istiqamətdə gərginlik, xaos yaratmağa çlışır.

❑ KƏNAN

# Yol xəritəsindəki 27 milyardı hökumət haradan tapacaq?

## Ekspertlər narahatdır: tapılacaq vəsait də səmərəli xərclənməyə bilər...

**Hökumətin bir neçə gün əvvəl açıqladığı iqtisadi yol xəritəsində islahatların həyata keçirilməsi üçün 27 milyard manat vəsaitin lazım olduğu vurğulanıb. Maraqlıdır, hökumət bu qədər vəsaiti haradan tapacağına əmindir? Ekspertlər musavat.com-a bu məsələ ilə bağlı danışıblar.**



Ekspert Vüqar Bayramov bildirib ki, 27 milyard olduqca böyük rəqəmdir və hökumət tapacağı mənbələri açıqlamalıdır: "Nəzərə almaq lazımdır ki, bu, qısa müddətdə, bir ildə həyata keçiriləcək investisiya deyil. Yol xəritəsindəki hər bir fəaliyyət, ona ayrılan maliyyə müəyyənləşib. Sonda bu vəsaitdən istifadə səmərəli oldu, yoxsa yox, bunu araşdırmaq, səmərəli olmadısa, səbəblərini araşdırmaq, nəticələri qiymətləndirmək mümkün olacaq. Amma 27 milyard böyük rəqəmdir. Xərc qoymadan islahat aparmaq mümkün deyil. Bu vəsaitin tapılması asan deyil. İndiki dövrdə hökumətin "Cənub Qaz Dəhlizi"ndə öhdəlikləri var, son dövrlərdə hökumət beynəlxalq maliyyə qurumlarından vəsaitlərin cəlb edilməsinə çalışır. Bu istiqamətdə də müəyyən addımlar atılır. Həm də CQD-nin reallaşması üçün belə maliyyə qurumlarından kredit cəlb edir. Düşünürəm ki, mənbələrin dəqiqləşdirişməsinə ehtiyac var. Elə istiqamətlər var ki, həmin istiqamətləri hətta hökumət real sektorun canlandırılması üçün rezerv ehtiyatlarından belə istifadə edə bilər. Xüsusən də kiçik və orta sahibkarlığın dəstəklənməsi, onlara güzəştli kreditlərin verilməsi üçün rezervlərin bir hissəsinin gətirilməsi və banklarda konversasiya ediləcək kiçik və orta sahibkarlara güzəştli şərtlərin təklif edilməsinin tərəfdarıyam. Bununla bağlı təkliflərimi 2015-ci ildə hökumətə təqdim etmişəm. Kiçik və orta sahibkarlığın canlandırılması vacibdir. Amma onların imkanları məhduddur. Güzəştli kredit almalıdır ki, maliyyə imkanlarını genişləndirə bilsin. O baxımdan da birmənalı şəkildə real sektor vəsait tələb edir. Kiçik və orta sahibkarlıqla bağlı strategiyada nəzərdə tutulan fəaliyyətlərin reallaşması üçün dövlət mənbələrindən istifadə edilə bilər. Dövlətdənkənar mənbələrdən istifadə imkanlarına da baxılmalıdır. İndiki məqamda ölkənin nisbətən yüngül şərtlərlə kredit almaq imkanları məhduddur. Çünki Azərbaycanın kredit reytinqi aşağı düşüb. Əvvəlki dövrlərdə əgər aşağı faizlə borclanma mümkün idisə, indiki halda bu, praktik olaraq mümkün deyil. Ona görə də borclanmaya gediləcəyi halda da faizlər yüksək olacaq. Ona görə də dövlət çalışmalıdır ki, maliyyə mənbəyi iqtisadiyyatın özündə yaransın. Bu gün bir sıra fəaliyyətlərin reallaşması üçün investorların cəlb edilməsi mümkündür. Ən faydalı və ən uyğun yoldur. İqtisadiyyatı inkişaf etdirəcək sektor sahibkarlardır. Bundan başqa, ciddi struktur islahatları, kadr islahatları aparılmalıdır".

Ekspert Natiq Cəfərli də musavat.com-a deyib ki, 27 milyard manatın tapılması asan məsələ deyil: "Əslində hökumət bir suala cavab verməlidir ki, son illər ölkəyə daxil olmuş 136 milyard dollarlarla belə vəziyyətə düşmüşüksə, vəziyyətdən çıxmaq üçün 27 milyard bəs edəcəkmi? Bu, necə xərclənəcək, hansı layihələrə xərclənəcək? Bu sualın cavabı çox vacibdir. Çünki yanaşma dəyişməsə, idarəetmə fəlsəfəsi dəyişməsə, düşünürəm ki, bununla bağlı problemlər yaşanacaq. Borcun, 27 milyardın tapılmasına gəldikdə isə, hətta görünən odur ki, hökumətin hədəfi böyük maliyyə institutları ilə danışıqlar aparıb, ciddi borclanmaya getməkdir. Artıq bir neçə belə iri borc layihələri ilə bağlı danışıqlar gedir. Bəziləri yekunlaşıb. Məsələn, Asiya İnkişaf Bankından 1,5 milyard, Avropa Yenidənqurma və İnkişaf Bankından 1,7 milyard dollar borcun alınması yaxın zamanlarda mümkün olacaq. Bütün maliyyə institutları ilə, o cümlədən Dünya Banklı ilə də, Beynəlxalq Valyuta Fondu ilə də danışıqlar gedir. Düşünürəm ki, əsas hədəf məhz elə bu danışıqlar yolu ilə, borclanma yolu ilə əldə olunan vəsaitin yol xəritəsində olan hədəflərə xərclənməsidir, bu, nəzərdə tutulub. Amma idarəetmə fəlsəfəsi dəyişmədən, ciddi problemlər olacaq. Vəsait tapılsa belə, effekt verəcəyi haqqında indən fikir söyləmək çox çətindir".

❑ Röya RƏFİYEVA

# Xarici şirkətlər Azərbaycandan gedir

## Ekspertlər səbəbləri açıqladılar, investorlar ölkədən bezib?

**Azərbaycandan gedən xarici şirkətlərin sayı ciddi şəkildə artmaqdadır. Son olaraq bildirilir ki, daha 5 xarici şirkətin filialı və nümayəndəliyi ləğv olunur.**



Vergilər Nazirliyinin məlumatına görə, "Merton Investment Holding Ltd.", "Commonwealth Oil and Gas Company Ltd.", "ACC Distribution UAB", "NTD Services LLP" və "Key Mühendislik Proje Taahhüt ve Limited" şirkəti ölkəni tərk edir. Ekspertlər ümumilikdə şirkətlərin ölkəni tərk etməsini bir çox səbəblərlə bağlayırlar.

Ekspert Natiq Cəfərli məsələ ilə bağlı açıqlamasında bildirdi ki, burada iki əsas səbəb var: "Biri obyektiv səbəbdir. Ölkədə iqtisadi fəallıq azalıb, iqtisadi fəallığın azalması, iqtisadiyyatın dövriyyəsini, gəlirləri azaldıb. Büdcə layihələrini azaldıb. Bir çox şirkətlər dövlət layihələrində çalışırlar. Bunlar obyektiv səbəbdir. Azalmalar fonunda, gəlirlərin azalması fonunda ölkənin cəlbediciliyi itir və onlar ölkədən getməyə üstünlük verirlər ki, izafi xərclərə yol verməsinlər. İkinci səbəb isə daha fundamentaldır, daha xroniki bir səbəbdir. İllərdir Azərbaycanda investisiya mühitinin yaxşılaşdırılması istiqamətində addımlar atılmır. İnvestisiya mühiti pis olduqda, məhkəmələrlə bağlı problemlər olduqda, mülkiyyət toxunulmazlığı ilə bağlı, bank sektoru ilə bağlı problemlər olduqda, xarici investorlar üçün ölkə cəlbediciliyini getdikdə itirir. Azərbaycanda hər iki hal bu gün baş verir. Ölkənin xroniki problemləri, investisiya mühitinin yaxşılaşdırılması ilə bağlı problemləri həllini illərdir tapmır".

Qeyd edək ki, əksər ekspertlər şirkətlərin Azərbaycanı tərk etməklə əlavə xərclərini azaltmağa çalışdıqlarını bildirirlər. Xarici şirkətlərin ölkəni tərk etməsi ilk növbədə mövcud iqtisadi problemlərin ölkədə işgüzar fəallığa təsiri ilə izah olunur.

Ölkədən xeyli sayda böyük şirkətlər, o cümlədən "Shell", "Samsung", "Nestle" də gedib. Ekspertlərin sözlərinə görə, əsas səbəb ölkədəki ümumi investisiya mühiti ilə bağlıdır. Yəni bu, Azərbaycanda iş şəraitinin, biznes şəraitinin digər ölkələrə nisbətən daha səmərəsiz olmasından irəli gəlir.

Bəzi təhlilçilərə görə, xarici şirkətlərin getməsi ölkədə biznes mühitinin pisləşməsinin göstəricisidir, digər ekspertlər isə Azərbaycanda çalışan xarici şirkətlərin sayının azalmasının ölkə iqtisadiyyatında nə isə dəyişdirəcəyini düşünmür.

2016-cı ilin ilk 6 ayı ərzində Azərbaycanda fəaliyyət göstərən 100 faiz xarici investisiyalı şirkətlərin sayı 2015-ci illə müqayisədə 3 faizdən çox artaraq 5987-yə çatıb. Dövlət Statistika Komitəsinin məlumatında bildirilir ki, ləğv olunan xarici müəssisələrin sayı 2015-ci il ərzində 64 olub. Bu ilin 6 ayı ərzində bu rəqəm 45-ə bərabərdir. Ekspertlərə görə, xarici şirkətlərin Azərbaycanı tərk etməsi daha çox yoxlamalardan tutmuş monopoliyaya qədər subyektiv səbəblərdən dolayı ölkədə işləməkdə çətinlik çəkmələri ilə bağlıdır.

❑ RÖYA

Azərbaycan Respublikasının Prezidenti yanında
Kütləvi İnformasiya Vasitələrinin İnkişafına
Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

Ermənistan-Azərbaycan,
Dağlıq Qarabağ münaqişəsi haqqında
həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması,
Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi



YENİ MÜSAVAT
N 282 (6603) 19 dekabr 2016

# Ermənistanın qorxunc röyası gerçəkləşir - "Dəmir günbəz"

## Azərbaycan döyüş və müdafiə qabiliyyətini artırır; yeni növ silahların serial istehsalına hazırlaşan Bakıdan İrəvana barıt qoxulu daha bir xəbərdarlıq; politoloq: "Müharibə qərarı elə bir məqamda verilməlidir ki..."

**Ötən həftə Bakıya edilən çoxsaylı və yüksək səviyyəli rəsmi səfərlər Azərbaycanın bölgədəki yerinin nə dərəcədə önəmli olduğunu növbəti dəfə göstərdi. Eyni zamanda, ölkəmizin bir çox dövlətlərdən ötrü nə qədər arzulanan olduğunu ortaya qoydu. Bu isə Azərbaycana öz köklü maraqlarını təmin etməkdə yeni və unikal fürsətlər açır.**






Söhbət, əlbəttə ki, ən əvvəl üçüncü on illikdir ədalətli həllini tapmayan Dağlıq Qarabağ problemindən gedir. Aydındır ki, bu problemin nizamlanmasında ölkəmizin hərbi qüdrətinin artırılması həlledici əhəmiyyətə malikdir və olacaq. Analitiklərə görə, İsrail baş naziri Benyamin Netanyahunun keçən həftə Bakıya reallaşan səfəri bu xüsusda çox vacibdir və öz nəticələrini tezliklə göstərə biləcək.

***

Azərbaycanın hərbi sənaye naziri Yavər Camalovun İsrail baş nazirinin səfərindən az sonra - Müdafiə Sənayesi Nazirliyinin yaradılmasının 11-ci ildönümü ilə bağlı keçirilən tədbirdə verdiyi açıqlamalar bu yöndə qənaət və ümidləri gücləndirir. Həmin açıqlamalar arasında işğalçı Ermənistanın qorxulu röyası sayılan silahlarla bağlı mühüm məqamlar da var.

Məsələn, nazir bildirib ki, Azərbaycan elektromaqnit impulslu silahlar istehsal edəcək. Onun sözlərinə görə, belə silahların istehsalı istiqamətində danışıqlar başlayıb və yaxın illərdə istehsalı nəzərdə tutulub: "Bu silahlar 2 km məsafədə düşmənin radio-elektron qurğularını sıradan çıxaracaq". Yavər Camalov daha sonra deyib ki, Azərbaycanın əsas məqsədi uzaq mənzilli raketlərin istehsalıdır və bu istiqamətdə də dünyanın hərbi şirkətləri ilə danışıqlar aparılır.

Bu il üçün dövlət sifarişi proqramının artıqlaması ilə yerinə yetirildiyini vurğulayan nazir güc strukturlarına təhvil verilən müdafiə təyinatlı məhsulların həcminin 1,6 dəfə, çeşidinin isə 1,8 dəfə artdığını da söyləyib. Yaxın perspektivdə Azərbaycanın əsas məqsədləri sırasında uzaqmənzilli raketlərlə bərabər "Hava-Hava", "Hava-Yer" tipli raketlərin istehsalı olduğunu bildirib: "Bununla bağlı artıq dünyanın aparıcı hərbi şirkətləri ilə ilkin razılıq da əldə olunub".

Ən önəmlisi, Y.Camalov Azərbaycan Müdafiə Nazirliyi ilə İsrailin müvafiq qurumu arasında "Dəmir günbəz" Raket Hücumundan Müdafiə Sisteminin alınmasına dair razılaşma əldə olunduğunu deyib. O, Müdafiə Sənayesi Nazirliyinin həmin sistemin alınmasına müsbət rəy verdiyini də qeyd edib.

***

Xatırladaq ki, "Dəmir günbəz" Raket Hücumundan Müdafiə taktiki sistemi uçuş məsafəsi 4 km-dən 70 km-dək olan, idarə edilməyən taktiki raketlərdən müdafiə üçün nəzərdə tutulur. Sistem İsrailin "Rafael" şirkəti tərəfindən yaradılıb. Lakin son bilgilərə görə, "Dəmir günbəz"in daha çox uçuş məsafəsi olan raketləri zərərsizləşdirən modifikasiyası da var və əslində Azərbaycan məhz onu almaq istəyir.

Hərbi ekspertlərə görə, bu reallaşarsa, o zaman Ermənistan ona verilən "İsgəndər" komplekslərinin yaratdığı taktiki üstünlükdən məhrum olacaq. Bu da hamısı deyil. Nazirin açıqlamalarında o da bəlli olub ki, qısa müddət ərzində Müdafiə Sənayesi Nazirliyinin müəssisələrində yaradılmış yeni növ kamikadze tipli "Zərbə" və kəşfiyyat-müşahidə xarakterli pilotsuz uçuş aparatlarının (PUA) sınaqları uğurla başa çatdırılıb və artıq Ali Baş Komandanın iştirakı ilə təqdimatı da keçirilib.

"Azərbaycan Silahlı Qüvvələrini yeni növ "Zərbə" pilotsuz uçuş aparatları ilə təmin etmək üçün yaxın vaxtlarda bu məmulatın seriyalı istehsalına başlanacaq. Bununla bağlı Müdafiə Sənayesi Nazirliyi ilə Müdafiə Nazirliyi arasında anlaşma memorandumu da imzalanıb" - nazir əlavə edib.

Bütün bunlar, sözsüz ki, Qarabağ danışıqlarını sabotaj edən işğalçı Ermənistana aydın bir mesajdır ki, sülhdən qaçmaq ona neçəyə başa gələr və müharibədə onu nələr gözləyir. Təbii ki, heç kim müharibə, qırğın, dağıntı arzulamır. Ancaq nə edəsən ki, erməni tərəfinin israrla qaçdığı ədalətli sülhün alternativi müharibədir. Klassik formulu burda yada salsaq, Azərbaycan sülh istəyirsə, gərək müharibəyə hazır olsun.

Ancaq bu, əlbəttə ki, son variantdır. Azərbaycan rəhbərliyinin bəyan etdiyi kimi, hələ ki sülhün imkanları tükənməyib. Savaş hüququnu isə Azərbaycan xalqının əlindən heç kim almayıb və ala bilməz. Sadəcə, bu məsələdə yüz ölçüb-bir biçməli, ən uğurlu məqamı gözləməliyik. Çünki Ermənistanın arxasında hansı gücün dayandığını ciddiyə almaq zorundayıq.

***

"Rəsmi və ictimai şəxslərin, o cümlədən təşkilatların emosional müharibə çağırışı ilə məsələ həll edilmir". Bunu əksər deputatların müharibə çağırışını şərh edərkən politoloq Tofiq Abbasov deyib (sherg.az). Onun sözlərinə görə, hazırkı şəraitdə Azərbaycanın Ermənistana müharibə elan etməsi tezdir.

"Ermənistan elə nataraz dövlətdir ki, onu hazırlıqsız vəziyyətdə yaxalamaq lazımdır. Lakin burada Azərbaycanın beynəlxalq institutların qarşısındakı öhdəliyini unutmaq olmaz. Sülh prosesində Ermənistan nə qədər danışıqlardan yayınıb, önəmli məsələləri sonrakı plana ataraq, münaqişənin həlli prosesini ləngitməyə çalışsa da, biz diplomatik səviyyədə dözümlülüyümüzü sona qədər saxlamalıyıq. Qarşıdan gələn danışıqlarda Ermənistan destruktiv mövqe nümayiş etdirərsə, o zaman, bu addımı atmaq olar", - deyə o qeyd edib.

Politoloq bildirib ki, Azərbaycan hələ 90-cı illərin sonlarından işğalçı dövlətə sülh prosesini ləngitməmək barədə ciddi xəbərdarlıq edib. "Dünya birliyində Ermənistana havadarlıq edən qurumlar və ölkələr açıq dəstəyini göstərir və onun mövqeyini müdafiə edirlər. Hətta Minsk qrupunun həmsədri olan Ceyms Uorlik bu məsələni aydın ifadə edir. Bu səbəbdən, elə məqamda bu addımı artmaq lazımdır ki, həmin təsisatlar Azərbaycana təzyiq göstərə bilməsinlər. Təklif edirəm ki, önümüzdəki bir neçə il müharibə barədə ciddi addımlar atılmasın. Lakin yenə də Azərbaycanın bütün göstəricilərə görə Ermənistandan xeyli irəlidə olduğu bəllidir. Bu hərbi hazırlığa, ordu quruculuğuna, demoqrafik vəziyyətə, iqtisadi göstəricilərə də aiddir. Ermənistan isə aprel döyüşlərindən sonra sözün əsl mənasında təşviş içərisindədir. Bütün bunları nəzərə alaraq, istisnaları zərərsizləşdirdikdən sonra müharibə elan edə bilərik" - T.Abbasov deyib. O əlavə edib ki, bəzi rəsmilərin bu çağırışları emosional xarakter daşıyır: "Ermənilər öz istəyi ilə işğal edilmiş torpaqlarımızdan geri çəkilməsə, zərərçəkmiş tərəf olaraq, zərbə endirməliyik".



# Orduda "Açıq qapı" günü keçiriləcək

Müdafiə naziri, general-polkovnik Zakir Həsənovun təsdiq etdiyi tədbirlər planına uyğun olaraq, dekabrın 30-da saat 11.00-da 31 dekabr Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il bayramı münasibətilə bütün hərbi hissələrdə əsgər valideynləri və yaxınları üçün "Açıq qapı" günü keçiriləcək.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən verilən məlumata görə, həmin gün ziyarətçilər, ictimaiyyət, kütləvi informasiya vasitələrinin nümayəndələri hərbi hissələrdə yaradılan yaşayış və məişət şəraiti ilə yaxından tanış olacaq, xidməti, inzibati binalara, əsgər yataqxanaları və yeməkxanalarına baş çəkəcək, eləcə də qonaqlar üçün müxtəlif döyüş texnikaları və silahların nümayişi təşkil olunacaq.

Hərbi hissələrdə Silahlı Qüvvələrin bütün rəhbər heyətinin iştirakı ilə keçiriləcək "Açıq qapı" günündə valideynlərlə görüşlər təşkil olunacaq, onları maraqlandıran bütün məsələlərin müzakirəsi aparılacaq, konsert proqramları və digər mədəni-kütləvi tədbirlər keçiriləcək.

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Siyasət şöbəsi

YENİ MÜSAVAT
N 282 (6603) 19 dekabr 2016

**Ləğv edilmiş Milli Təhlükəsizlik Nazirliyinin (MTN) Energetika və Nəqliyyat Sahələrinə Nəzarət Baş İdarəsinin həbsdə olan rəisi general Akif Çovdarov istintaqa ifadəsi zamanı agentura şəbəkəsi, bu şəbəkəyə ayrılan pulların kimin göstərişi ilə və necə xərclənməsi ilə bağlı suallara cavab verib.**

# Akif Çovdarov istintaqda agentlərə xərclənən pullardan danışıb

## O, 920 min manat, 455 min dollar və 790 min avronu Eldar Mahmudovun icazəsi ilə götürdüyünü deyib; amma pullar kimə xərclənib, bilmir...

Məlum olduğu kimi, həbsdə olan general və onun rəhbəri olduğu idarənin digər 3 əməkdaşına qarşı irəli sürülən ittihamlardan biri də külli miqdarda mənimsəmədir. Belə ki, ittihama görə, Akif Çovdarov və onun idarəsinin 3 əməkdaşı - polkovnik Səlim Məmmədov, MTN-in sabiq idarə rəisi, mayor Akif Əliyev və keçmiş şöbə rəisi Orxan Osmanov dövlət büdcəsindən agentura şəbəkəsinə xərclənməsi məqsədi ilə ayrılmış külli miqdarda vəsaiti mənimsəyiblər.

Bununla bağlı olaraq da Dövlət Təhlükəsizlik Xidməti (DTX) Çovdarov və digərlərinə qarşı mülki iddia ilə çıxış edib. Adı çəkilən şəxslərin cinayət işi üzrə məhkəmə prosesinə DTX də tərəf kimi qoşularaq zərərçəkmiş kimi tanınmasını istəyib. MTN-in ləğvindən sonra yaradılan qurum agentura şəbəkəsinin saxlanılması üçün dövlət büdcəsindən ayrılan 2 milyon 917 min manat pulun Çovdarov və digərləri tərəfindən mənimsənilərək şəxsi məqsədləri üçün xərcləndiyini bildirir və həmin məbləğin təqsirləndirilən şəxslərdən alınaraq DTX-yə ödənilməsini tələb edir...

**Bəs Akif Çovdarov bu epizod üzrə nə deyib?**

Musavat.com Çovdarovun istintaqa bu epizod üzrə verdiyi ifadəni əldə edib. General istintaqa ifadəsində müvəqqəti cəlb olunmuş şəxslərə pul mükafatlarının verilməsi məsələsində maddi məsul şəxs olduğunu təsdiqləyib.

O bildirib ki, əməliyyat-axtarış fəaliyyətinin təminatı üçün MTN Maliyyə İdarəsinin kassasından pul götürülməsi üçün keçmiş nazir Eldar Mahmudovun adına raportla müraciət edib, sonradan isə öz idarəsinin əməkdaşlarına vəkalətnamə verib. Həmin əməkdaşlar da pulları götürüb və müvəqqəti cəlb olunmuş şəxslərə veriblər.

**Çovdarov: "Agentlərlə tam məxfi rejim şəraitində..."**

A.Çovdarov istintaq zamanı ona təqdim edilmiş 32 ədəd raportlardakı imzaların özünə məxsus olduğunu təsdiqləyib. O deyib ki, əməliyyat təminatı məqsədilə müvəqqəti cəlb olunmuş şəxslər barədə baş idarədə heç bir məlumat yoxdur. Heç bir rəsmiyyətdə də əks olunmayıb. Onun sözlərinə görə, agentlərlə tam məxfi rejim şəraitində əməkdaşlıq edilib və mükafatlandırılan şəxslərə pullar verilərkən məxfiçilik qaydalarına görə onlardan heç bir qəbz alınmayıb.

Əməliyyat başa çatdıqdan sonra həmin agentura hissəsi ilə bağlı bütün məlumatların aktlaşdırılaraq məhv edildiyini qeyd edən Çovdarov bildirib ki, MTN əməkdaşları Səlim Məmmədova, Akif Əliyevə və Ramin Hüseynova vəkalətnamələri özü verib. Həmin vəkalətnamələr MTN-in Maliyyə İdarəsindən pulların götürülməsi məqsədilə verilib.



Akif Çovdarov

Çovdarov avans-hesabatlardakı imzaların da özünə məxsus olduğunu təsdiqləyib. General deyib ki, həmin hesabatlardakı əməliyyat tədbirlərinin hamısı olub və həyata keçirilib. Həbsdəki general əməliyyat tədbirlərinə müvəqqəti cəlb olunmuş şəxsləri tanımadığını, onlarla görüşmədiyini söyləyərək, bu işlərlə rəisi olduğu baş idarənin əməkdaşlarının məşğul olduğunu deyib.

**Əcnəbi agentlərə də pul verilib...**

Dindirilmə zamanı işçiləri Akif Əliyev, Səlim Məmmədov və Ramin Hüseynov tərəfindən götürülmüş 920.000 manat, 455.000 dollar və 790.000 avro məbləğində pul vəsaitlərinin ona verilmədiyini deyən Çovdarov bir daha qeyd edib ki, həmin pullar avans-hesabatlar yazılaraq müvəqqəti cəlb olunmuş şəxslərə təhvil verilib. O, müvəqqəti cəlb olunmuş şəxslərin yalnız Azərbaycan vətəndaşları yox, həmçinin əcnəbilər də olduğunu vurğulayıb.

Akif Çovdarov ifadəsində onu göstərib ki, əməliyyat-axtarış fəaliyyətinin təminatı üçün rəhbərlik etdiyi idarə tərəfindən əməliyyat zəruriliyi və məqsədəuyğunluğu olmayan tədbirlərə, faktiki mövcud olmayan müvəqqəti cəlb olunmuş vətəndaşlara və etibarlı şəxslərə mükafat kimi verilməsi adı ilə 920.00 manat, 455.000 dollar və 790.000 avro məbləğində pul vəsaitlərinin təyinatı üzrə xərclənməyərək ələ keçirilməsi yalandır. Çovdarov həmçinin həmin məbləğin sabiq nazir Eldar Mahmudova və sabiq nazirin köməkçisinə verilmədiyini də bildirib.

Qeyd edək ki, DTX-nın Akif Çovdarov və digərlərindən tələb etdiyi 2 milyon 917 min manat, istintaq zamanı generaldan soruşulan 920 min manat, 455 min dollar və 790 min avrodur. Mülki iddia zamanı DTX 455 min dolları və 790 min avronu manatın həmin zamankı (mülki iddianın məhkəməyə təqdim etdiyi zamana) məzənnəsi ilə tələb edir.

❑ **İ.MURADOV**

# "Namus üstə qətl" məhkəməsində dava: "Qızım kimi o da həbsdə çürüsün"

## Xaçmazda 3 uşaq anasının qətli ilə bağlı qalmaqallı proses yekunlaşdı; anası qətldə keçmiş kürəkənini də suçlu bilir

**Qətl hadisəsi bu ilin iyul ayında Xaçmaz rayonunun Uzunoba kəndində qeydə alınıb. Kənd sakini, 1954-cü il təvəllüdlü Məlikməmməd Adıgözəlov keçmiş gəlini, 1984-cü il təvəllüdlü Rəmziyyə Əbdürrəhmanovanı qətlə yetirib.**

Bakı Ağır Cinayətlər Məhkəməsində hakim Əhməd Quliyevin sədrliyi ilə M.Adıgözəlovun cinayət işi üzrə məhkəmə prosesi başa çatıb.

Prosesdə dövlət ittihamçısı Ramin Nağdəliyev çıxış edərək 31 yaşlı Rəmziyyə Əbdürrəhmanovanı öldürməkdə təqsirləndirilən M.Adıgözəlovun 20 il müddətinə azadlıqdan məhrum edilməsini istəyib.

Məhkəmədə M.Adıgözəlovun vəkili müdafiə çıxışı edib.

O, təqsirləndirilən şəxsin Rəmziyyə Əbdürrəhmanovanı qətlə yetirməsinin səbəblərindən danışıb: "Cinayət işi materiallarından və məhkəmədə ifadə verən şahidlərin dediklərindən aydın olur ki, Rəmziyyə yüngül həyat tərzi yaşayıb. Onun əxlaqsızlıq etməsini qonşuları və qohumları da bilib. Həmçinin hadisə baş verən gün Rəmziyyə Məlikməmməd Adıgözəlovu təhqir edərək onun şəxsiyyətini alçaldıb. Müdafiə etdiyim şəxsi özündən çıxarması bu hadisənin baş verməsinə səbəb olub".

Vəkil qətlin necə törədilməsini istintaq materiallarına istinadən danışıb: "Rəmziyyə qapını döyərkən Məlikməmməd Adıgözəlov qapını açmağa gəlib. Bu zaman qapının gec açılmasını əsas gətirən Rəmziyyə onu təhqir edib, "cındır" deyib. Onlar arasında mübahisə yaranıb. Məlikməmməd əlində olan yaba ilə Rəmziyyənin başına bir zərbə vurub. Rəmziyyə yerə yıxılsa da, Məlikməmmədi söyməyə davam edib və ayağa qalxaraq qaçıb. Məlikməmməd onun arxasınca gedərək ikinci zərbəni, ardınca isə üçüncü zərbəni vuraraq onu öldürüb. Hadisə baş verərkən Rəmziyyənin azyaşlı oğlu Murad da onun yanında olub.



Sonra Murad evə qaçıb".

Vəkil onu da açıqlayıb ki, Rəmziyyə təqsirləndirilən şəxsin oğlu Elsevər Adıgözəlovla 2001-ci ildə ailə həyatı qurub. Onlar 2009-cu ildə boşanıblar. Vəkil elan edib ki, onların boşanmasına səbəb Rəmziyyənin əxlaqsız hərəkətləri olub: "2009-cu ildə Elsever Rəmziyyəni tövlədə başqa kişi ilə münasibətdə olarkən tutub. Onun ailəsinə də məlumat verdikdən sonra ondan boşanıb. Ancaq məhkəmə qərar çıxarıb ki, Rəmziyyə də həmin evdə yaşasın. Son 6 ildə onlar arasında da bir neçə dəfə mübahisələr yaşanıb".

Məhkəmədə qətlə yetirilən Rəmziyyənin ailəsini qəzəbləndirən məqam isə vəkilin məhkəməyə 10 nəfər kənd sakini tərəfindən imzalanmış müraciəti təqdim etməsi olub. Vəkil bildirib ki, həmin müraciəti imzalayan 10 kənd sakini Rəmziyyənin yüngül həyat tərzi yaşadığını təsdiq edirlər.

Vəkil həmçinin mərhumun uşaqlarının da analarının yüngül həyat tərzi yaşadığını təsdiq etdiklərini söyləyiblər: "Mərhumun qızları və oğlu istintaqa ifadələrində analarının başqa şəxslərlə münasibətdə olduqlarını, məktəbdə barmaqla göstərilərək ələ salındıqlarını deyiblər".

Məhkəmədə prokurorun Məlikməmməd Adıgözəlova 20 il cəza istəməsinə Rəmziyyənin atası Qabil Əbdürrəhmanov münasibət bildirib. O, cəzanın az olduğunu deyib: "Mən ömürlük istəyirəm. Qızımı necə çürüdüb öldürdüsə, elə də ölsün".

Keçmiş gəlinini qətlə yetirən 52 yaşlı Məlikməmməd Adıgözəlova da məhkəmədə son söz verilib.

O, gəlinini namus üstündə öldürdüyünü deyib: "Qonşular da, ailəsi də onun necə biri olduğunu yaxşı bilir. Onu namus üstündə öldürmüşəm. Həmin gün də məni təhqir etdi, özümü saxlaya bilmədim".

Hadisə ilə bağlı Rəmziyyənin keçmiş əri Elsevər Adıgözəlov isə bunları deyib: "Onu kəndlimizlə evimizin tövləsində tutdum. Anasını çağırıb sözümüzü dedik ki, qızın budur. Boşanandan sonra hər gecədə hasardan 2-3 nəfər gəlib, gedirdi. Bir söz deyə bilmirdik. Qonşular da bir neçə dəfə ona demişdilər ki, özünü yığışdırsın. Spirtli içki qəbul edirdi, siqaret çəkirdi".

Məhkəmə heyəti yekun qərarı elan etmək üçün müşavirəyə yollanıb. Fasilə ərəfəsində tərəflər arasında əlbəyaxa dava düşüb.

Mərhumun anası Gülbəniz Əbdürrəhmanova həbs edilən şəxsə və qızının keçmiş ərinə "siz necə namussuz adamsınız? Qızıma ayrılan 8 min alimenti verərdiniz. O da oturub, uşaqlarına baxardı. Qızım gecə-gündüz işləyib, uşaqlarını saxlayıb. Siz də deyirdiniz ki, 8 mini verib, Məlikməmmədin həbsdən çıxaracağıq" sözlərini deyib.

"Siz öz qızınızın namusuna baxın, sonra bizə söz deyərsiniz" cavabını alan Gülbəniz Əbdürrəhamanova keçmiş kürəkəni Elsevərin üstünə hücum çəkərək ona iki yumruq zərbəsi vurub. Daha sonra mərhumun atası keçmiş kürəkənini vurmaq istəyib. Digər qohumlar da davaya müdaxilə edib. Tərəfləri məhkəmə nəzarətçiləri sakitləşdirib. Məhkəmə zalında mərhumun azyaşlı oğlu Murad da olub. Yaxınlarının dediyinə görə, qətl hadisəsinə şahidlik edəndən sonra Muradda psixoloji problemlər yaranıb və o, 1 aya yaxın müalicə alıb.

Mübahisə zamanı mərhumun anası Gülbəniz Əbdürrəhmanaova keçmiş kürəkənini də qətldə iştirak etməkdə günahlandırıb: "Mən bilirəm ki, qızımı öldürəndə sən də orada olmusan, sən də vurmusan. Bu iş burada qalmayacaq. Sənin də cəzalanmağın üçün əlimdən gələni edəcəm".

Fasilədən sonra hakim Əhməd Quliyev hökmü elan edib. Hökmə əsasən, özünü qismən təqsirli bilən Məlikmməmməd Adıgözəlovun 16 il müddətinə azadlıqdan məhrum edildiyi elan edilib.

❑ **İlkin MURADOV**

**Əməkdaşımız Əməkdar artist, tanınmış aktrisa Nahidə Orucova ilə söhbət edib. Söhbəti təqdim edirik:**

# "Mənim üçün o cür kişi artıq kişi deyil"

## Əməkdar artist Nahidə Orucova: "Axı dedilər ki, işıq, qaz bahalaşmayacaq..."



**"Biz aktyorlar nə maaş alırıq ki..."**

***– Nahidə xanım, 2016-cı il sizin xatirinizdə necə qalacaq?***

- Bu il mənim üçün çox səmərəli keçdi. İlin əvvəlində prezident mükafatına layiq görüldük. Bu, bizim üçün sevindirici haldır, bir köməkdir aktyorlara. May ayında siyahı hazırlandı və mən də həmin siyahıya düşəndə çox sevindim. Bundan başqa seriallara, bir çox filmlərə dəvətlər aldım, çəkildim. Yayda mən dincələ-dincələ filmlərə çəkilirdim. Bir arada 2-3 filmə çəkildim. Aktyor üçün iş, teatrda təzə rollar, tamaşalar olanda biz yaşayırıq, il səmərəli olur. Vay o günə iş olmaya... (gülür)

***- Bəs teatrdakı işinizdən razısız?***

- Əlbəttə ki, razıyam. Hazırda "Molla Nəsrəddinin beşinci arvadı"nı hazırlayırıq. Gözəl tamaşadır, inşallah yəqin ki, fevral-mart ayında hazır olacaq, indi isə məşqləri gedir. Ümumiyyətlə, bizim teatrda bir çox tamaşalar hazırlanır. Köhnə tamaşaların da bərpasını götürmüşük, məsələn Üzeyir Hacıbəyovun "Arşın mal alan" tamaşasını səhnələşdiririk. Yəni teatrımızda həmişə iş var. Bəzən deyirlər ki, "siz hər gün məşq edirsiz?". Başa sala bilmirəm ki, köhnə tamaşalar artıq bitdi, biz hər il təzə tamaşalar hazırlayırıq. Bir daha qeyd edirəm, iş olanda biz yaşayırıq. Şəxsən mənim çəkilişlərim olanda və ya hansısa verilişlərə gedəndə yaşayıram. Yəni tələb olunan aktyorlar üçün iş var.

***- Amma iki il bir-birinin ardınca xoşagəlməz olaylar yaşadız, gözəl aktrisamız Nuriyyə Əhmədova sizin evinizdə, görkəmli rejissor Ələkbər Kazımovski isə sizin ad günü mərasiminizdə dünyasının dəyişdi...***

- Biz gəlirik həyata, bu həyat da ki, ömürlük deyil, nə vaxtsa köçəcəyik. Amma bunun da gec-tezi var. Onsuz da biz itirə-itirə gedirik, o cür korifeylərimizi, teatrımızın, kinomuzun sütunlarını itirmişik və çox təəssüf ki, yerləri boş qalır. Bəzən deyirlər ki, əvəz olunmaz adam yoxdur. Amma bizim sənətdə var. Çünki bizim sənət əvəzolunmaz sənətdir və yalnız bu sənəti sevənlər onun dəyərini bilir. Doğrudan da çox heyfslənirəm ki, mənim ətrafım get-gedə boşalır. Elə bil illər yaşa dolduqca başdan bir-bir saçlar tökülür. Və heyf ki, biz onları cavan itiririk.

***- "Kişi sözü" serialındakı Nahidə obrazı kişi üzərində hökmü olan, evdəki qərarları özü qəbul edən qadındır. Bəs həyatda Nahidə xanım necədir?***

- Mən həyatda çox mülayim, həlim, üzü yola adamam, hər insanla dil tapa bilirəm. Elə bir şey olmaz ki, kiminləsə küsülü qalım, ürəyim dözməz ki, küsülü olum, yəni kinsiz insanam. Amma insanlar var ki, bunu bacarır. Mehribanam, ümumiyyətlə insanları sevən adam. Heyf ki, insanlar çox zaman bundan sui-istifadə edirlər. Ancaq nə edək, pənah Allaha, tanrı özü bilən məsləhətdir.

***- Serialda qarşı tərəf qadın hökmü qarşısında zəif kişidir. Həyatda bu cür kişilərə münasibətiniz necədir?***

- Qarşı tərəf obrazını yaradan aktyor Elnur Hüseynov çox gözəl insandır. Amma həyatda qadın sözünə baxan kişiləri sevmirəm. Mənim üçün o cür kişi artıq kişi deyil. Həyatda istərdim ki, kişi hökmlü olsun. Mən özüm hökmlü, qərarlı insanam. İstərdim ki, yanımda olacaq kişi də belə olsun. Əfsus ki, elə kişilər bizdə azdır, bəlkə də buna görə mən bu gün təkəm. Mənim xasiyyətimdən üstün olan kişi istəyərdim. Amma yoxdur. Ümumiyyətlə, bizdə cılızlaşma gedir, həm insanlarda, həm də hər bir sahədə.

***- Tənhalıqdan söz düşmüşkən, bu ilin sonunda həmkarınız Naibə Allahverdiyeva axır ki, tənhalığına son qoyaraq ailə həyatı qurdu. Gələn il sizdən də bu cür xoş xəbərlər ala biləcəyik?***

- Mən çox sevinirəm və Naibəyə deyirəm ki, "Ay Naibə, sağ əlin mənim başıma" (gülür). Mən də çox istəyərdim ki, tək olmayım. Heç olmasa yaşımın bu çağında tənha qalmayım. Cavanlıq elədir ki, biz onda hər şeyə çox da fikir vermirik, cavanlığını, məhəbbət dolu həyatını keçirirsən sənətinə, övladına, ətrafındakılara. Amma yaşımızın elə bir məqamı gəlib çatıb ki, sən artıq fikirləşirsən ki, mən niyə tək olmalıyam. Və istəyirsən ki, yanında, ətrafında kimsə olsun. Amma...

***- Sizi daha çox komik obrazlarını ifaçısı kimi tanıyırıq. Maraqlıdır, tamaşaçıları güldürən Nahidə xanım bəs özü kimə gülə bilir?***

- Yeri gəlmişkən, mən komik aktrisa deyiləm, dramı bitirmişəm. Amma imkan olmadı ki, "Azdrama"da işləyim. Mənim əgər diplomum o sahə üzrədirsə və mən orada işləmirəmsə, çox təəssüf... Əgər mən özümü Musiqili Komediya Teatrında tapmışamsa, çox istəyərdim ki, drama əsəri də oynayım. Gülməyə gəldikdə isə onsuz da həyatımız indi çox gülüncdür. Hər şey, hər addım gülüncdür, özümüz də nəyə güldüyümüzü bilmədən uğunub gedirik. Amma düz deyirsiz ki, tamaşaçını güldürmək çox çətindir. Bəzən görürsən ki, aktyor səhnədə dəridən-qabıqdan çıxır, amma tamaşaçı adi qarşılayır, heç qımıldamır, dodağı da qaçmır. İndi düşünən tamaşaçımız çoxdur və onları güldürmək çətindir.

***- İlin sonuna yaxın Tarif Şurası qazın, işığın qiymətinin bahalaşacağı ilə bağlı qərarını açıqladı, manat da hələ də üzən məzənnədir, iqtisadi böhran getdikcə daha da dərinləşir və sairə. Bu proseslər sizin güzəranınıza necə təsir göstərir?***

- Axı dedilər ki, işıq, qaz pulu bahalaşmayacaq, öz yerində qalacaq.

***- Bu, şayiə idi.***

- Böhran bizə də təsir göstərəcək də. Biz aktyorlar nə maaş alırıq ki... Ona görə indidən bizi fikir aparır ki, bunun axırı necə olacaq... Amma o maaşı almayan, heç bir yerdə işləməyən, yalnız pensiya ilə dolanan insanlar da var axı. Mənim yazığım gəlir, irəlidə bizi çox acınacaqlı günlər gözləyir...

***- Qarşıdan Xoruz ili gəlir. Ümumiyyətlə, astroloji illərə və ya bürclərə inanırsızmı?***

- İnanıram. Mənim ilim öküz, ayım isə xərçəngdir. Amma deyirlər ki, gələn il hər şey yaxşı olacaq. Görək, ya qismət. Çox istəyərdim ki, maaşlarımız artsın, ən əsası isə özümə cansağlığı istərdim. Və millətimiz üçün sülh, əmin-amanlıq, xoş rifah arzulayıram. Əvvəllər baxırdın ki, insanların üzləri güləruz idi. Amma indi baxırsan ki, hamını problem basıb, daha çox problemli üzlər görürsən. Rifahları xoş olsa insanların bir-birləri ilə davranışları da xoş olar.

❑ **Xalidə GƏRAY**



# Bakıda Yeni il "partapart"ı: olub, yenə də olacaq...

**Bir neçə gün öncə "Sınıq Körpü" gömrük postunda Gürcüstandan Azərbaycana gətirilən 60 minə yaxın pirotexniki vasitə aşkarlanaraq götürülüb. Bu həmin vasitələrin yalnız sərhəddə tutulan hissəsidir, hamı bilir ki, pirotexnik vasitələr ölkəyə gətirilir də, satılır da.**

Virtualaz.org Bakıda ticarət obyektlərində pirotexnik vasitələrin satılıb-satılmadığını araşdırıb. "28 May" metro stansiyasının yaxınlığındakı mağazalardan məlum olub ki, yolka oyuncaqları və digər aksessuarlar satılan mağazalarda pirotexnik vasitələr satılmır. Satıcı da israrla bildirdi ki, belə mağazalarda dekabrın 30-na kimi həmin vasitələri tapa bilməyəcəyik. Əgər mütləq almağı qarşıya məqsəd qoymusansa, onda ya "Vosmoy bazarı"na, ya da "Sədərək" Ticarət Mərkəzinə üz tutmalıyam.

"Vosmoy bazarı" kimi tanınan "8-ci km" bazarının girişində al-əlvan bəzədilmiş yeni il aksessuarları satılan mağazalar göz oxşayır. Alıcı əlindən də tərpənmək olmur. Növbəmiz çatanda Yeni il oyuncağı istədiyimizi düşünüb həvəslə yaxınlaşan satıcıya nə istədiyimizi deyəndə bir az duruxdu. Məlum oldu ki, bu obyektdə belə vasitələrin satışına qadağa qoyulub. Elə baş çəkdiyimiz mağazaların əksəriyyətində eyni cavabı aldıq: "İcazə vermirlər, qorxuruq satmağa".

Amma əlbəttə ki, qorxunu necəsə yenib satanlar da var idi. Adını demək istəməyən satıcıdan onu da öyrəndik ki, indi gizli şəkildə tək-tük mağazalarda pirotexnik vasitələr satılsa da, dekabr ayının 30-dan sonra bütün mağazalardan rahatca ala biləcəyik:

- İndi partlayıcıları satmağa qoymurlar axı, qanunsuzdur. Bilsələr, adamı tutarlar. Ona görə də, satıcıların çoxu risk eləyib onları satışa çıxarmır. Amma ayın 30-da gəlin, istədiyinizi seçib alın.

- 30-da satmağa icazə verirlər ki?

- Gününə 300 manat alıb, icazə verirlər...

"İcazəsini alıb" satsalar belə, bəzi satıcılar pirotexnik vasitələrdən danışmağa ehtiyat edirlər. Hətta bir satıcı bizə bu barədə ucadan danışmamağı məsləhət gördü: "Yavaş danışın, gəlib sizi də tutarlar, məni də. Mən elə şeylər satmıram. Amma istəsəniz, qonşu satıcıda var", - deyə özünü Ümid kimi təqdim edən satıcı məni qonşuya yönləndirdi.

O isə yolka zərlərinin altında gizlətdiyi çantanı eşələyib lap alta qoyduğu partlayıcını tapdı. İçərisində 60 ədəd partlayıcı olan qutunun qiyməti 1,5 manatdır. Lakin satıcının sözlərinə görə, bundan güclü partlayıcılar olsa da, ona yalnız bundan satmağa icazə verilib. Həm də istəsək, bizə bir dənəsi 1 manata satılan güclü partlayıcılar "təşkil edə" bilər.

Partlayıcılara tək-tük rast gəlsək də, bazarda fişənglər, ümumiyyətlə, satılmırdı. Burada daha çox yeniyetmələrin aldığı "vzrıvpaket"lərə də rast gəlmədik. Satıcıların sözlərinə görə, belə vasitələri və fişəngləri almaq üçün yalnız "Sədərək" Ticarət Mərkəzinə getmək lazımdır. Qiymətləri isə 3 manatdan başlanır. Bir yaxşı Yeni il süfrəsini təşkil etməyə yetəcək qədər - 50, hətta 70 manata kimi davam edir.

Partlayıcıların ən təhlükəli tərəfi ondan ibarətdir ki, yandırarkən bir neçə saniyə alışmır. Elə bilirsən ki, yanmayıb. Bu zaman uşaqlar onu əlinə alır, üzünə, hətta gözünə belə yaxınlaşdıra bilirlər. Bir neçə saniyədən sonra alışan partlayıcı beləcə neçə uşağı kor, kar, şikəst edib. Doğrudur, indi uşaqlar üçün onu əldə etmək əvvəlki kimi asan deyil, amma heç əlçatmaz deyil, yəni axtaran tapır.

Bəs aidiyyəti qurumlar bu vasitələrin uşaqlarımızın əlinə keçməməsi üçün necə mübarizə aparırlar?

Bakı şəhər İcra Hakimiyyətinin Ticarət və Xidmət Departamentinin mətbuat xidmətinin rəhbəri Əliabbas Bağırovun bildirdiyinə görə, pirotexnik vasitələrin satışı ilə il boyu mübarizə aparılır, Yeni il şənlikləri ərəfəsində isə bu tədbirlər intensivləşir: "Əvvəllər bu işlə BŞİH Ticarət və Xidmət Departamenti məşğul olurdu. İndi polis və Gömrük Komitəsinin əməkdaşları ilə birgə belə vasitələrə qarşı tədbirlər görürük. Bu vasitələrin qarşısını birinci olaraq Gömrük Komitəsi almalıdır. Son 10-15 ildə bu vasitələrin ölkəyə gətirilməsinin, demək olar ki, qarşısı alınıb. İl-ildən də satışda azalma müşahidə edilir. İndi satışa çıxarılanlar isə ötən illərdən qalanlardır".

Qeyd edək ki, belə vasitələrin satışı ilə məşğul olan şəxsləri İnzibati Xətalar Məcəlləsinə görə 80 manat həcmində cərimə gözləyir. BŞİH başçısının 17 dekabr 2001-ci il tarixli sərəncamı ilə partlayıcı oyuncaqların, fişənglərin satışı və istifadəsi qadağan edilib.

YENİ MÜSAVAT
N 282 (6603) 19 dekabr 2016

**Qarşıdan bir neçə günlük qış tətili gəlir. Arzusuna və cibinə uyğun olaraq istirahət etmək istəyən vətəndaşlar daha çox respublikanın rayonlarına üz tutmağa üstünlük verirlər. Xüsusən də qarı bol, qartopu oynamaq şansı olan dağ rayonlarında. Təbii ki, bu zaman hotellərə üz tutmaq istəyən vətəndaşları o qədər də xoş sürprizlər gözləmir. Çünki qış aylarında "fürsəti vermə əldən" deyib, 1 həftəlik qazancı nəzərə alıb, müştərilərinin cibini "soymaq" ənənəsi var.**



# Qışda kənd turizmi - bahalı istirahət...

## Kənd evlərinin bir sutkalıq qiyməti 80-100 manat civarındadır, xarici turistlər gəlmir, yerli turistlər isə...

**Kənd evlərinin üzünə "qış günəşi" doğub?**

Amma eyni problem kənd turizmi üçün də keçərli imiş. "Yeni Müsavat" bu günlərdə respublikanın bəzi bölgələrindəki kənd evlərinin qiyməti ilə maraqlananda ortaya ilginc nəticələr çıxıb. Təbii ki, vətəndaş axtarışa başlayanda öncə internetdə rayonun adını yazıb, daha sonra "kənd evi" axtarışı verir. Bu zaman da maraqlı, diqqətçəkən kənd evlərinin fotoları və qiymətlər yer alır. Maraqlananda məlum olur ki, bunlar makler(dəllal) nömrələridir. Qusarda kənd evləri ilə maraqlananda təxminən belə nəticə ilə üzləşdik. Özünü makler kimi təqdim edən Rəşad adlı şəxs bildirdi ki, əgər kənd evində Yeni il bayramında qalmaq istəyiriksə, bunun üçün həmin evin bir günlük kirayəsini - 100 manatı nəzərə almalıyıq. Üstəgəl, səhər yeməyi, hər hansı xidmət də yoxdur. Bahalığın səbəbi ilə maraqlandıqda isə deyildi ki, bəs, qışda insanlar ancaq Yeni il bayramı ərəfəsində gəlirlər. Ona görə də qiymətlər ev sahiblərinə və təbii ki, faiz alan firmaya sərfəli olsun deyə bu cür müəyyənləşdirilib. Evlərin fotolarını da telefonla yollayırlar. Bildiyiniz kənd evi, dörd divar, heç bir xüsusi özəlliyi yox. Makler deyir ki, bəlkə daha çox axtarsa, sutkası 80 manata olan kənd evi tapa bilər, amma ona da söz vermir.

**4 gün kənd evində istirahət 600 manat?**

İndi normal hesablayanda məlum olur ki, minimum 4 gün kənd evində qalmaq 400 manata başa gəlir. Gündə üç dəfə yeməyi də nəzərə alanda, ən minimal hesabla, bu, 4 gündə 200 manat deməkdir. Yəni, ən aşağı hesablamalarla 4 günlük kənd turizmindən yararlanmaq Azərbaycan vətəndaşına 600 manata başa gəlir. Nəzərə alsaq ki, bu qiymətlə, Türkiyənin, eləcə də bəzi Avropa ölkələrinin qış tətili paketi var, o zaman maraqlıdır: hansı azərbaycanlı kənd turizminə önəm verər?

**Evlər soyuq, su soyuq, hamam şəraiti bərbad - xəstəlik qaçılmazdır**

Ötən il Xızıda bir neçə gün kənd evində istirahət edən müsahibimiz Valeh Hüseynov deyir ki, kənd evlərinin ən yaxşı vaxtı yaydır. Çünki həmin vaxt evlərdə qaz, işıq problemləri xüsusi olaraq gözə dəymir. Yeni insanlar axşamdan-axşama evə gəlir, bəzən şəraitsiz kənd hamamlarında yuyunmağı belə ekzotika hesab edirlər. Qışda isə... V.Hüseynov ötən qış tətilini ailəsi ilə birgə Xızıdakı bir kənd evində keçirmək istəyib. Amma evdə istilik sistemi olmadığından soyuqdan donublar: "Odun sobası var idi ki, bu da evi o qədər isitmirdi. Bundan başqa, hamamları buz kimi. Evi də turist gələcək deyə təzə rəngləmişdilər. Ona görə də rəng iyindən üç gün az qala nəfəs ala bilmirdik. Nə səhər yeməyi verirdilər, nə günorta, nə də şam. Hər birini yaxınlıqdakı bir restoranda yeyirdik. O da bizə olduqca baha başa gəlirdi. Birinci və axırıncı dəfə oldu. Tövbə etdik. Bir daha Azərbaycanda qışda harasa getdi yoxdur dedik və getməyəcəyik də. Çünki gələndən sonra bir həftə xəstəlikdən ayağa dura bilmədik".

Xızının Altıağac qəsəbəsində ev turizmi daha çox inkişaf edib. Buraya gələn turistlər bir sutka üçün 20-30 manat kirayə haqqı ödəməklə kənd evlərində qalmağa üstünlük verirlər. Qəsəbədə müasir tələblərə cavab verən istirahət mərkəzi də fəaliyyət göstərir.

Əcnəbi turistlər arasında MDB ölkələrindən, Türkiyə, Böyük Britaniya və ABŞ-dan olanlar üstünlük təşkil edir. Xarici turistləri daha çox yerli əhalinin həyat tərzi, adət-ənənələri maraqlandırır.

Xızıya gələn turistlərin sayı çox olduğundan rayonda mehmanxana və hotellərin tikintisinə ehtiyac var. Bu rayonda ekoturizmin inkişafı üçün ideal təbii şərait də mövcuddur.

Qeyd edək ki, bu ilin ötən dövründə Xızı rayonuna, ümumilikdə, 8 mindən çox turist gəlib. Qış turizm mövsümündə isə rayona 3 mindən çox turistin gələcəyi gözlənilir.

**Yollar pis olduğu üçün qış turizmi rayonlarda inkişaf etmir**

Azərbaycanda isə qış turizminin inkişaf etməməsinin ilkin səbəbi olaraq zəif infrastruktur göstərilir. Belə ki, ilk növbədə qış turizm obyektinə gedən yollar yüksək səviyyədə təmir olunmayıb. Bundan başqa, turizm məkanlarının lazımi səviyyədə qızdırılmaması, hotellərdə qaz, işıq problemlərinin həll edilməməsi axını zəiflədir. Bu mənada Azərbaycanda orta səviyyəli qış turizm obyekti tapmaq çətindir. Bu səbəbdən də insanların qışda istirahət etmə arzuları gözündə qalır. Ölkə daxilindəki qış turizm obyektləri ya çox yüksək səviyyədədir ki, ordakı qiymətlər sıravi vətəndaşların cibinə uyğun olmur. Xaricilər üçünsə qış turizmi deyəndə Azərbaycan bir seçim kimi yada düşmür.

**Əcnəbilər üçün Azərbaycandakı kənd turizmi.... standartlardan aşağıdır, çünki...**

Ümumiyyətlə, kənd turizmi daha çox yerli əhali üçün sərfəlidir. Çünki əcnəbi turistlər çox nadir hallarda kəndlərdəki evlərə üstünlük verir. Buna səbəb isə həmin evlərdə normal kommunal şərtlərin olmamasıdır. Bunlardan ilki kənd yerlərindəki ayaqyolu-hamam şəraiti, habelə qaz-işıq verilməsində yaşanan fasilələrdir. Bundan başqa, hələ də evi turizm obyekti kimi istifadəyə verən kənd camaatının onu kondisionerlə təchiz etməməsidir. Xüsusən dağ rayonlarında yayın sərin keçdiyi nəzərə alınsa da, günortanın istisi öz sözünü deyir.

Xarici turistlərin kənd evlərini tərcih etməməsinin bir səbəbi də dil problemidir. Xaricilər ev sahibi ilə anlaşa bilmədikləri üçün problem yaşayır. Bakılı turistləri isə çox vaxt ev sahiblərinin hədsiz qonaqpərvərliyi sıxır.

Ümumilikdə bir çox inkişaf etmiş ölkələrdə də turizmin bu növünə maraq çoxdur. Meqapolislərin gurultusundan, tüstülü havasından qurtulmaq istəyənlər çox vaxt ekzotika xatirinə dağlara, göl kənarlarına çəkilməyi üstün tuturlar. Məsələn, Fransa, Böyük Britaniya və Almaniyada turizmin bu növünə xüsusi diqqət yetirilir. Buna səbəb Fransanın şərq rayonlarında dağ relyefinin olması, habelə bir neçə ölkə ilə (İsveçrə, Almaniya, İtaliya, Belçika və Lüksemburq) həmsərhəd olmasıdır. Ölkənin cənubunda çimərlik əraziləri və şərabçılıq rayonları yerləşir. Fransanın qərb rayonlarında kənd turizminin az inkişaf etməsinə səbəb iqlimin yağışlı və küləkli olmasıdır. Hazırda 35 min fransız fermeri turistlərin qəbul edilməsinə hazırdır. Almaniyanın cənub və qərb rayonlarında da turizmin bu növü daha çox inkişaf edib. Buna səbəb bu regionların iqtisadi cəhətdən güclü inkişaf etməsi və zənginliyi ilə fərqlənməsidir. Böyük Britaniyada isə kənd turizmi əsasən ölkənin cənub regionlarında inkişaf edib. Buna səbəb qədim tarixi abidələrlə zəngin bu ərazilərdə yerləşən iri şəhərlərin əhalisinin kənd yerlərində istirahətə çox üstünlük verməsidir.

Şimali Avropanın kənd turizmi bazarında Danimarka xüsusi yer tutur. Danimarkanın kənd təsərrüfatı öz effektivliyi ilə Avropa bazarında yüksək qiymətləndirilir. Bu səbəbdən Danimarkada istirahət etmək üçün aqroturistlərin tələbi ildən-ilə artır. İsveçin və Norveçin yalnız cənub regionlarında kənd turizmi inkişaf edib. Şimal regionlarında bu turizm növünə ehtiyacın az olması həmin ərazilərin sərt iqlimə malik olması ilə bağlıdır.

**Bir həftəyə gücün çatmır - 3 gün get, amma...**

Bu arada yeni bir xidmət də populyarlıq qazanıb. Bu, birgünlük-ikigünlük-üçgünlük turlardır. Bəzi turizm şirkətləri ölkə daxilindəki bəzi rayonlara belə qısamüddətli turlar təşkil edirlər. Amma burada da qiymətlər yeməklərin sayından, göstərilən xidmətdən asılıdır. Söhbət yerli turistlərin avtobuslarla Nabrana, Masallıya və ya Qəbələyə aparılmasından gedir. İstirahət proqramı çərçivəsində turistlərə gündə iki dəfə yemək verilir. Yeməkdən imtina edənlər özləri ilə gətirdiyi yeməklə qidalanırlar. Amma bu sayaq turların normal qiyməti 50 manatdır. İki-üç günlük turlar isə müvafiq olaraq 100-150 manatdır.

Amma qış istirahətindən danışıb, Gürcüstanı yada salmamaq olmaz. Çünki Azərbaycanda insanlar qış tətilini daha çox Tiflisdə keçirməyə üstünlük verirlər. Burada bir həftəlik ailəvi istirahət 600-700 manatdan baha başa gəlmir. Azərbaycanda qış tətili üçün daha çox Birləşmiş Ərəb Əmirlikləri, Türkiyə və Fransaya getmək istəyirlər. Dubaya, İstanbula, Türkiyənin Uludağ, Sarıqamış, Qartəpə, Qartalqaya kimi xizək mərkəzlərinə gedənlərin sayı daha çoxdur.

Məlumat üçün deyək ki, Gürcüstana istirahət üçün ən çox Azərbaycan, Türkiyə və Ermənistan vətəndaşları gəlir. Bu region ölkələrinin payına ümumilikdə 78 faiz turist düşür. Belə ki, Azərbaycandan 488 461, Türkiyədən 485 137, Ermənistandan isə 479 377 turist Gürcüstanda dincəlməyə üstünlük verib. Gürcüstanın Turizm Milli Agentliyinin verdiyi məlumata əsasən, ölkəyə gələn turistlər ən çox Tiflisə səfər etməyi üstün tutur. Bu həm də Tiflisin əsas kommunikasiya mərkəzi olması ilə izah edilir.

Gürcüstanın digər bölgələrinə səfər edənlərin sayı isə belədir: Batumi - 44%, Msxeta - 18%, Kutaisi - 10%, Qori - 10%, Siqnaxi - 8%, Kazbeqi - 7% və s.

❑ **Sevinc TELMANQIZI**

YENİ MÜSAVAT

Son səhifə

N 282 (6603) 19 dekabr 2016



# Burada kişilər evlənəndən sonra qadının soyadını qəbul edir

**Dünyanın ən fərqli mədəniyyətinə sahib olan İndoneziyaya aid Sumatra adası qeyri-adi yaşayış qaydalarına görə həmişə diqqət çəkir. Dünyanın ən böyük altıncı adası olan Sumatra təbiəti, yaşayışı, evlilik qaydaları ilə hər kəsi təəccübləndirir.**

Sumatra yaşıllıq baxımından çox zəngin və bol gölə sahib bir yerdir. Buna görə bolluq və bərəkətin mərkəzi hesab edilir. Dünyanın ən bahalı qəhvəsi buradadır və qəhvə burda əsas yemək qaynağı hesab edilir. Adada yaşayan 4,5 milyonluq əhali matriarxal - evlərin qadınlara aid olduğu, kökün anadan gəldiyi, kişinin evləndikdən sonra qadın evinə köçdüyü bir ənənəyə sahibdir. Evlənən kişilər qızın evinə gedir, onun soyadını götürür. Arvadı tərəfindən küçəyə atılan kişilər sığınacaqlarda yaşayırlar.

Kişilər qadın hegemonluğu altında yaşayırlar. Qadınlar hər yerdə, hər sahədə hegemon və rahatdır. İndoneziyanın islam dini ilə tanış olan ilk əhalisi sayılan Qərbi Sumatrada qadınlar kişilərə hökmranlıq edir. Arvadı tərəfindən küçəyə atılan, heç bir işi olmayan, acınacaqlı halda olan kişilər məscidlərdə, sığınacaqlarda yaşayırlar. Arvadı ölən kişilər isə ömrünün sonuna kimi küçədə yaşamalı olur.

# Ölümdən sonrakı həyatı belə sübut etdilər

**Britaniyanın Sauthempton Universitetinin mütəxəssisləri belə qənaətə gəliblər ki, insan öləndən sonra da düşünə bilir. Alimlər ölümdən sonrakı həyatla bağlı araşdırmalarını 2060 nəfərin üzərində aparıblar. Alimlərin araşdırma apardıqları insanların hamısı ürək dayanması və kliniki ölüm yaşayanlar olub. Qeyd edək ki, ölümdən 90 saniyə sonra ürək dayanır, beyin fəaliyyətini tamamilə itirir və insan düşünə bilmir. Lakin üzərlərində araşdırma aparılanlardan bəziləri bildiriblər ki, kliniki ölüm baş verdikdən sonra 3 dəqiqə ərzində ətraflarında baş verənləri hiss edə biliblər. Hətta 57 yaşlı şəxs baş verənləri dəqiqliklə təsvir edib.**



Mütəxəssislərin fikrincə, bu insanın danışıqları həqiqətdir, amma buna qədər həmişə onları illüziya və hallüsinasiyada ittiham edirdilər. Araşdırmada iştirak edən digər şəxslər bildiriblər ki, onlar ürəyin dayanmasından sonra belə, qorxu hissini xatırlayırlar.

Alimlər kliniki ölümdən sonrakı halların həmin insanların danışdıqlarından da çox müddətdə baş verə biləcəyini istisna etmir.

# Dünyada hər gün 16 min körpə ölür



**1990-ci ildən etibarən uşaq ölümü iki dəfə azalıb. Lakin dünya Minilliyin İnkişaf Məqsədlərindən birinin - beş yaşadək uşaqlar arasında ölüm hallarının üçdə ikisini aradan qaldırmaq məqsədinin öhdəsindən gələ bilməyib. BMT Xəbərlər Mərkəzi bildirir ki, cari ildə hər gün beş yaşa çatmayan 16 min körpə vəfat edib.**

BMT Uşaq Fondunun (UNICEF) və Dünya Səhiyyə Təşkilatının (DST) illik məruzəsində qeyd edilir ki, 2015-ci ildə təqribən 5,9 milyon uşaq beş yaşa çatmadan tələf olub, halbuki 1990-ci ildə həmin göstərici 12,7 milyon nəfər təşkil edib. UNİCEF-in icraçı direktorunun müavini Gita Rao Qupta deyib: "Biz xüsusən 2000-ci ildən sonra nail olduğumuz böyük qlobal tərəqqini etiraf etməliyik. Onda ölkələrin çoxu beş yaşa qədər uşaqlar arasında ölüm səviyyəsinin azaldılması sürətini üç dəfə artırmışdı".

Amma uşaqların çoxu hələ də elə səbəblərdən ölür ki, onların qarşısını almaq mümkündür. UNİCEF-dən bildiriblər ki, 1990-ci ildən başlayan dövr ərzində 195 ölkədən yalnız 62-də uşaq ölümü Minilliyin İnkişaf Məqsədlərinin tələb etdiyi şəkildə azaldılıb. Sətəlcəm, ishal, qanın zəhərlənməsi, vaxtından əvvəl doğuşun əmələ gətirdiyi fəsadlar və malyariya uşaqlar arasında ölüm hallarının əsas səbəbləridir. Uşaq ölümünün ən yüksək səviyyəsi Böyük Səhradan cənubda yerləşən Afrika ölkələrində müşahidə olunur. Bu regionda hər 12 uşaqdan biri beş yaşına çatmamış tələf olur.

# Qoroskop






**QOÇ - Olduqca əhəmiyyətli gündür. Hansısa böyük bir işinizi həyata keçirməkdə şans qazanacaqsınız. Bununla yanaşı perspektivli görüş və maddi gəliriniz də mümkündür.**



**BUĞA - Əbəs yerə risk etməyin. Çalışın ki, ünsiyyətdə olduğunuz insanlarla münasibətləri qoruyasınız. Təxminən saat 15-dən sonra işgüzarlığınızı artırın ki, uğurlarınız çoxalsın.**



**ƏKİZLƏR - Ulduzların düzümü maraqlı bir təqvim yaşayacağınızdan xəbər verir. Üzləşdiyiniz adamların əksəriyyəti ovqatınızı yüksəldəcək. Sövdələşmələr üçün də səmərəli vaxtdır. Bu fürsətdən yararlanın.**



**XƏRÇƏNG - Astroloji göstəricilər işlərinizin rəvan gedəcəyinə işarə edir. Hətta cəhd etdiyiniz təqdirdə maddi durumunuz da yaxşılaşa bilər. Nahardan sonra səfərə çıxmaq fikrinizi reallaşdırın.**



**ŞİR - Yeni işgüzar əlaqələrə start vermək üçün Göy qübbəsi tərəfinizdə duracaq. Odur ki, bütün səylərinizi birləşdirməlisiniz. Günün ikinci yarısında şanslı məqamlar yaşayacaqsınız.**



**QIZ - Gün ərzində mənfi enerjili Ay bürcünüzdə qərar tutduğundan ilk növbədə səhhətinizi qorumalısınız. Qlobal işlərin həllini, eləcə də səfərlər planını isə mümkün qədər təxirə salın.**



**TƏRƏZİ - Yalnız münasibətlər zəminində uğurlarınız olacaq. Fəaliyyət və ya şəxsi işlər üçünsə sərfəli vaxt deyil. İnsanlara qarşı unutqanlığınızı dəf edin. Daha çox istirahət edin.**



**ƏQRƏB - Saat 11-13 arası əsəblərinizi cilovlaya bilsəniz, günün qalan müddətində ovqatınız xoş olacaq. Boş dayanmayın. Mühüm adamlara baş çəkin ki, ulduzlar sizə sevinc bəxş etsin. Pul da gözlənilir.**



**OXATAN - Qarşınızda duran vəzifələrin çoxluğu sizi yoracaq. Lakin nəticənin uğurlu olacağını nəzərə alıb passivləşməməlisiniz. Axşam məxfi görüşlər keçirmək sizə böyük səmərə verə bilər.**



**OĞLAQ - Səhər saatlarından başlayaraq qarşılıqlı münasibətlər zəminində, həmçinin işgüzar sövdələşmələrdə vəziyyət ürəyinizcə olacaq. Günün ikinci yarısında yeni təkliflər də gözlənilir.**



**SUTÖKƏN - Enerjinizin azaldığı bir vaxtda özünüzü ələ almağa çalışın. Fikirlərinizi başa düşən adamlar arayın. Nahar ərəfəsində şəxsi büdcənizi artırmaq ehtimalınız yaranacaq.**



**BALIQLAR - Böyük dəyişikliklər astanasındasınız. Qətiyyən tərəddüd etməyin. Nə qədər cəsarətli olsanız, işləriniz də bir o qədər uğurlu olacaq. Nahardan sonra qonaq getməyə dəyər.**

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

# Soyuq hava infarkt riskini artırır



**Alimlər müəyyən ediblər ki, aşağı hava temperaturu miokard infarktının yaranma riskini əhəmiyyətli dərəcədə artırır. "Trend"in Korrespondent.net saytına istinadən verdiyi məlumata əsasən, alimlər apardıqları təcrübənin nəticələrini kardioloqların "ESC Congress 2015" konfransı zamanı təqdim ediblər.**

Təcrübə zamanı alimlər 6 il müddətində Kanadanın Vinnipeq şəhərində yaşayan insanlarda miokard infarktının yaranma tezliyini təhlil ediblər. Məlum olub ki, soyuq mövsümdə insanlarda miokard infarktı daha tez-tez baş verir: isti günlərdə belə hallar sutkada 0,78 hal təşkil edirsə, soyuq havada bu göstərici 0,98 olur. Araşdırma müəllifləri əmin edirlər ki, havanın temperaturunun 10 dərəcə aşağı düşməsi infarkt qurbanı olma ehtimalını 7 faiz artırır.

Səhifəni hazırladı: SELCAN

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "E-Q" mətbəəsində çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Zahid SƏFƏROĞLU

Lisenziya N: B 114
SAYI: 4.750